

## YARAT Müasir İncəsənət Məkanı onillik yubileyini qeyd edib

3

# Ermənistanda revanşist qüvvələr bilməlidirlər ki, "dəmir yumruq" yerindədir!



SƏS
№ 227 (6427) 11 dekabr 2021-ci il. Qiyməti 40 qəpik

*Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün işğaldan azad olunan ərazilərdə "Böyük qayıdış" üçün bütün zəruri tədbirlər ən müasir standartlara uyğun həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir, sərhədlərin etibarlı qorunması üçün bütün lazımi işlər görülür.*



2

# Zəmanəni qabaqlayan fenomen

## HEYDƏR ƏLİYEV



8

*Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına Tanrının bəxş etdiyi böyük şəxsiyyətdir.*

## Media Qanunu: niyə qəbul olunmalıdır, nələri dəyişəcək?



Bir neçə gündür ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi müzakirə olunur. Dövrün tələbləri ilə media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" yeni qanunun qəbul edilməsinə həqiqətən böyük...

## "Qalatasaray" 1/8 finalda!



*Futbol üzrə UEFA Avropa Liqasında qrup mərhələsinə yekun vurulub. Bununla da 1/8 final və pley-off mərhələsinin bütün iştirakçıları müəyyənləşib.*

## Əhməd İsmayılov: "Media haqqında" Qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar deməkdir

5



Dekabrın 10-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilib. İclasda ölkənin bir sıra media qurumlarının və aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

## "3+3" formatında keçirilən görüşdə nələr müzakirə olunub?

4

Moskva şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü təşəbbüsə əsasən "3+3" regional məsləhətləşmələr mexanizminin Azərbaycan, Ermənistan, İran, Rusiya və Türkiyə xarici işlər...



## Revmatizm xəstəliyi barədə bilmədiyiniz vacib faktlar...



16

## Azərbaycan pandemiya ilə mübarizədə nümunəvi ölkəyə çevrilib



13



## Dmitri Zavorotnı: "Fars körfəzi-Qara dəniz marşrutu Yeni İpək Yolu üçün rəqib ola bilər"

14

Rusiya Federasiyası İqtisadi Strategiyalar Mərkəzinin rəhbəri Dmitri Zavorotnı "Caliber" analitik mərkəzinə müsahibəsində Avrasiya



## Növbəti Zəfər bayramımız Zəngəzur dəhlizinin açılacağı gün olacaq

11

*İlham Əliyevin vurğuladığı kimi, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq: "İstəməsə, zorla həll edəcəyik"*

# Ermənistanda revanşist qüvvələr bilməlidirlər ki, "dəmir yumruq" yerindədir!



***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün işğaldan azad olunan ərazilərdə "Böyük qayıdış" üçün bütün zəruri tədbirlər ən müasir standartlara uyğun həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir, sərhədlərin etibarlı qorunması üçün bütün lazımi işlər görülür.***

Ermənistan isə Azərbaycanın 44 günlük Vətən müharibəsində ”dəmir yumruq”la başı əzilərək bu gün acı məğlubiyyəti ilə barışmaq istəmir və çıxış yolunu təxribatlar törətməkdə görür. Amma Ermənistan anlamır ki, həqiqətən, bu böhrandan, yaşadığı xaosun girdabından xilas olmaq istəyirsə, Azərbaycanın bölgədə sülh və əməkdaşlığın bərpası ilə bağlı təşəbbüslərinə qoşulmalıdır. Belə olmadığı halda dövlət başçımızın dediyi kimi: ”Yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

Ancaq Ermənistan yenə də öz çirkin əməllərindən əl çəkmir. Dekabrın 9-u saat 15.00 radələrində Ermənistan hərbi bölmələri Basarkeçər rayonu istiqamətində yerləşən döyüş mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonundakı mövqelərini atəşə tutub. Ordumuzun bu istiqamətdə yerləşən bölmələri tərəfindən müvafiq tədbirlər görülüb. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır və Ermənistan bir daha anlamalıdır ki, məğlub Ermənistanın istənilən təxribat cəhdinin qarşısı alınacaq və ....

## ”Dəmir yumruq” yerindədir

Artıq seçim Ermənistanındır. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyanın məsuliyyətsizliyi, savadsızlığının nəticəsidir ki, addımlarının nəyə gətirib çıxara biləcəyini düzgün təhlil edə bilmir və təxribatları ağlasığan deyil. Özgə torpağına öz torpağı kimi yanaşır, fikirləşmir ki, ədalət zəfər çalacaq, onlar etdiklərinin cəzasını çəkəcəklər. Və bu təxribatlar Ermənistan üçün yaxşı olmayan nəticələr vəd edir.Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ermənistan-Azərbaycan münaqişəsinin həll edildiyini bəyan edib. Qondarma ”status” məsələsinə istinadlara gəldikdə, bu xüsusda Azərbaycanın mövqeyi dəfələrlə və ən yüksək səviyyədə bəyan edilib. Dövlət başçımız 14 iyul tarixində səsləndirdiyi çıxışında bir daha vurğuladı: ”Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı. Bütün Qarabağa aid olan rayonlar orada birləşib”.

Azərbaycan Prezidenti: ”Ermənistan sülh müqaviləsi imzalamağa hazır deyil, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər”

”Mən bir neçə dəfə demişəm ki, biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Yəni, bu işlərin başlanmasına hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib”.Bəli, Ermənistan keçmişdən və tarixdən nəticə çıxarmalıdır.O zaman belə bir sual meydana çıxır:

## Təxribatların arxasındakı maraq və münaqişənin bitməməsi kimlərə lazımdır?

II Qarabağ müharabisənin başa çatmasını simvolizə edən 10 noyabr bəyannaməsinin imzalanmasından sonra Prezident İlham Əliyev dəfələrlə çıxışlarında Qarabağ münaqişəsinin həll olunaraq, tarixə qovuşduğunu, artıq yeni quruculuq mərhələsinin başladığını bildirib. Dövlət başçısı müxtəlif görüş və çıxışlarda onu da vurğulayıb ki, Azərbaycan bölgədə sabitliyin qarantı kimi çıxış edən ölkədir, Ermənistan tərəfi isə bu prosesə qeyri-adekvat reaksiya nümayiş etdirir. Məhz buna görə də, Azərbaycan tərəfi həmişə olduğu kimi, bu gün də sülh yolu ilə və danışıqlar prosesi çərçivəsində həllinin vacibliyini əsas götürür və Ermənistanın 10 noyabr bəyanatının icrasının mütləq olduğunu deməyə əsas verir. Və Ermənistanın qeyri-adekvat davranışı ilk növbədə onun özü üçün zərbədir. Real vəziyyət isə belədir. Dövlətimizin başçısının dediyi kimi, ”Əgər ermənilər öz çirkin planlarındanəl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq”.Bəli, ermənilər bu çirkin əməlləri ilə ən ağır nəticə ilə üzləşəcəklər. Lakin hər kəs əmin olsun ki, 10 noyabr tarixindən sonra bölgədə yeni geosiyasi və geoiqtisadi əlaqələrin formalaşmasına start verilib, Ermənistan üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməyə vadar ediləcək. Çünki Azərbaycan Prezidenti yalnız haqq ədalət tərəfdarı kimi çıxış edir və dünya dövlətləri də bunu bilir. Tarixən ədalət qalib gəlib, Azərbaycan xalqı da düşməni yerində oturtmağa qadirdir.

Ermənistanın isə qeyri-adekvat davranışı ilk növbədə onun özü üçün zərbədir. Və hər hansısa bir təxribat olarsa, ”Dəmir yumruğ”un növbəti zərbəsini alacaqlar.

## Prezident İlham Əliyev yenə də diktə edən tərəfdir

Göründüyü kimi, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Çünki Azərbaycan işi haqq işidir. Azərbaycan Prezidenti haqlı olaraq bəyan etdi ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir, şərtləri də cənab İlham Əliyev diktə edir: Ermənistan silahlı birləşmələri Azərbaycan torpağından tamamilə çıxarılmalı, Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf etməli, Azərbaycan xalqından üzr istəyərək ”Qarabağ Ermənistan deyil” fikrini söyləməli və işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəlini hazırlayıb Azərbaycana təqdim etməlidir”. Əgər Azərbaycan Prezidentinin bu şərtlərinə əməl olunarsa, atəşkəs rejimi bərpa ediləcək. Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın ”Qarabağ Ermənistanındır” sərsəm fikrindən sonra xitam verilib. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir..

## Revanşistlər nəticə çıxarmasalar, dəmir yumruq işə düşəcək

Ermənistanda revanşist qüvvələr həm də bilməlidirlər ki, Azərbaycan Silahlı Qüvvələrinin güc-qüdrətinin artırılması son 18 ildə olduğu kimi, hazırda da xüsusi diqqətdə saxlanılır. Ölkə rəhbərinin göstərişlərinə əsasən, düşməndən təmizlənən ərazilərdə bərpa işləri aparılmaqla yanaşı, yeni hərbi hissələr yaradılır, hərbi arsenal müasir silahlarla zənginləşdirilir və silahlanmaya yeni pilotsuz uçuş aparatları daxil edilir, müasir hərbi infrastrukturun qurulması məsələsinə xüsusi önəm verilir. Bütün bunlar son 18 ildə güclü, müasir ordu yaradılması məsələsinə böyük əhəmiyyət verilməsinin, müasir döyüşlərin aparılmasında mühüm önəm daşıyan hərbi texnikanın alınmasının, son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahların hərbi arsenala daxil edilməsinin məntiqi nəticəsi idi. Əsgər və zabitlərimizin fiziki hazırlığı, qəhrəmanlıq gücü, döyüş ruhu hesabına Şuşanın işğaldan azad edilməsi bunun bariz ifadəsidir. Beləliklə, gündən-günə güclənən bir qüvvənin - ”dəmir yumruğun” hesabına Ermənistan acı məğlubiyyət yaşadı.

Ermənistan dövləti başa düşməlidir ki, onun yeganə çıxış yolu qonşuları ilə münasibətləri normallaşdırmaqdan keçir. Bu reallığı nə qədər tez dərk etsələr, onlar bir o qədər də tez regiondakı inteqrasiya proseslərinə qoşula biləcəklər. Hər halda, onlar Vətən müharibəsində Azərbaycan Ordusunun gücünü gördülər. Dövlətimizin başçısı Prezident İlham Əliyevin də Hərbi Qənimətlər Parkındakı çıxışı zamanı bu məsələ ilə bağlı fikirləri açıq və qəti idi: ”Dəmir yumruq” yerindədir, lazım olarsa, başlarıını əzərik və buna əbədi son qoyular”.

Erməni cəmiyyəti baş verən bu prosesləri diqqətlə izləməli, İkinci Qarabağ müharibəsinin dərslərindən nəticə çıxarmalı və hansısa şovinist qüvvələrin əsirinə çevrilməməlidir. Əks təqdirdə, ”dəmir yumruq” yenidən işə düşə bilər.

Bəli, hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan Vətən müharibəsi nəticəsində sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib və bu gün sərhədləri etibarlı şəkildə qorunur. Bu Ermənistanı ciddi narahat edir və hərdən təxribat xarakterli əməllərə cəhd edir. Amma bu ölkədə baş qaldıran həmin revanşist qüvvələr İlham Əliyevin xəbərdarlığından ciddi nəticə çıxarmalıdırlar. Əks halda bundan sonra hər hansısa bir təxribat olarsa, ”Dəmir yumruğ”un növbəti zərbəsini alacaqlar.

***RƏFİQƏ HÜSEYNOVA***

Təhlil

## Rəsmi xronika

Prezident İlham Əliyev İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev 2022-ci ildə növbəti ”Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və ”Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.



*Sərgidə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib*







# YARAT Müasir İncəsənət Məkanı onillik yubileyini qeyd edib

YARAT Müasir İncəsənət Məkanının 10 illik yubileyinə həsr olunmuş ÖN SÖZ-ON SOZ sərgisinin açılışı Daş Salnamə muzeyində baş tutub. Sərgidə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, YARAT Müasir İncəsənət Məkanının təsisçisi Aida Mahmudova, "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudova iştirak edib.

Trend xəbər verir ki, ÖN SÖZ-ON SOZ qrup sərgisi, YARAT-ın ilk ÖN SÖZ layihəsinə istinad edərək, ilk dəfə olaraq YARAT-ın sifarişi ilə hazırlanmış seçmə əsərləri və 10 il ərzində topladığı unikal kolleksiyaya daxil olmuş ən mühüm əsərləri bir ekspozisiyada nümayiş etdirmişdir. Ekspozisiya yaddaş və tarix, keçmişin indiki reallığa nə qədər təsir etməsi mövzularını əhatə edir. Sərgidə Afruz Amighi, Faiq Əhməd, Rəşad Ələkbərov, Aida Mahmudova, İdris Xan, Habib Saher, Mahmud Rüstəmov, Orxan Hüseynov, Vüsal Rəhim, Leyli Salayeva, Çinarə Məcidova və Elturan Məmmədovun instalyasiya, heykəl, video və foto əsərləri təqdim olunub.

Afruz Amighi-nin xüsusi olaraq 55-ci Venesiya Biennalesi üçün hazırlanmış "Adsız" əsərində tarixi meyarların içində qərq olmuş və vizual zənginliyi özünün dərinliklərində gizlədən obrazlılıqdan istifadə edilir.

İdris Xanın "Dünyanın axırı üçün kvartet" layihəsi XX əsrdə yaşanmış vəhşiliklərin yaddaşlardan silinməməsinə həsr olunur və sənətkar qəlbindəki sarsılmaz yaratmaq eşqinin təntənəsidir. Sərgidə həmçinin İdris Xanla rəqqasə Sara Vorsopun birgə işi olan "İntizar içində" video əsəri nümayiş olunur.

Mahmud Rüstəmovun xarakterik modernist üslubda hazırlanmış "Üfüqdə yatmış" heykəli göylərdən enmiş ilahi buludda yerləşən bolluq buynuzunu əks etdirir.

Orxan Hüseynovun "Sovetski atelyesi" videofilmi Bakının keçmiş Sovet küçəsinə həsr olunub. Rəşad Ələkbərovun "Do Not Fear" (Qorxma) və "Qeyri müəyyənlik" əsərləri xüsusi olaraq 56-cı Venesiya Biennalesi üçün hazırlanıb və tarixi simvolika mövzuları ətrafında hazırlanmışdır.

Habib Saherin "Qodonu gözləyərkən" heykəl instalyasiyası, sərginin davam etdiyi müddətdə yaşlı ağacdan gips kəllələrin düşməsi ilə zamanın ötüb-keçməsini ehtiva edir.

Elturan Məmmədovun 2011-2018-ci illərdə hazırlanan fotoqrafiya silsiləsi insanlar və ətraf-mühiti fərqli kontekstdən nümayiş etdirir. Onun digər instalyasiyası ikimənalı olaraq "Son zəng" adlanır və Azərbaycanda erkən nikah problemlərinə həsr olunub.

Fotoqraf Çinarə Məcidova və şairə Leyli Salayevanın "Yalnız kişilər üçün (qadınlar, utanmayın)" adlı birgə layihəsi 12 qadının şeir söyləməsini əks etdirir. Layihənin başlıca məqsədi, diqqəti qadınların özlərini zəif və müdafiəsiz hiss etməyə vadar edən məqamlara yönəltməkdir.

Vüsal Rəhimovun "Nurcan" adlı performansı erkən nikahlar mövzusuna qarşı həssaslığın artırılması istiqamətində sosial işləri dəstəkləməklə yanaşı, cəmiyyətə bu problemin aktuallığını və virtual müzakirə platformasının təşkilinin vacibliyini izah edir.

Aida Mahmudovanın "Adsız" instalyasiyası "Sovetski" məhəlləsindən götürülmüş dekorativ qapıdan ibarətdir və yaddaş, nostalji və yerli bənzərsizlik ilə bağlı Azərbaycanın modernləşməsini əks etdirir.

Faiq Əhmədin "Sosial anatomiya" videosu Azərbaycan xalça naxışlarının simmetriyasını və burada istifadə edilən düzbucaqlı yaşıl və qırmızı parça ilə haşiyələnmiş quruluşu göstərir. Videoda anonim iştirakçılar sosial quruluşu simvollaşdıran canlı xalçanı yaradırlar.

Eyni zamanda YARAT-ın təsis olunduğu 2011-ci ildən başlayaraq reallaşdırdığı müxtəlif ictimai, təhsil və sərgi layihələrinin xronologiyası və arxiv materialları YARAT Müasir İncəsənət Mərkəzinin 1-ci mərtəbəsində nümayiş olunur.



# "3+3" formatında keçirilən görüşdə nələr müzakirə olunub?




***Moskva şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü təşəbbüsə əsasən "3+3" regional məsləhətləşmələr mexanizminin Azərbaycan, Ermənistan, İran, Rusiya və Türkiyə xarici işlər nazirlərinin müavinləri səviyyəsində təsis iclası keçirilib.***

Xarici işlər nazirinin müavini Xələf Xələfov bununla bağlı AZƏRTAC-a açıqlamasında deyib: "Gürcüstanın gələcəkdə bu formata qoşulması bütün iştirakçılar tərəfindən təqdir edilib. Həyata keçirilən müzakirələrin nəticələri barədə Gürcüstan tərəfi də məlumatlandırılacaq. İclasda regionda etimadın artırılması, iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası, yenidən qurulması və genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafına yönəlmiş fikir mübadiləsi aparılıb".

Onun sözlərinə görə, mexanizm çərçivəsində nazir müavinləri səviyyəsində görüşlər və müzakirələrin ən azı ildə iki dəfə olmaqla, rotasiya əsasında hər dəfə bir iştirakçı ölkədə keçirilməsi nəzərdə tutulur. Görüşlər və müzakirələr Xarici İşlər nazirliklərinin əlaqələndirməsi və yönəltməsi çərçivəsində iqtisadiyyat və nəqliyyat nazirliklərinin, ehtiyac yarandıqda isə digər müvafiq qurumların iştirakı ilə keçiriləcək.

Məsləhətləşmələr mexanizminin fəaliyyətinin inkişafından asılı olaraq, daha yüksək səviyyədə görüş və müzakirələr təşkil oluna bilər. Mexanizmin fəaliyyəti konsensus prinsipi əsasında aparılacaq. "Görüşlərdə ümumi regional məsələlər və tərəflər üçün qarşılıqlı maraq doğuran, regional sabitliyə, rifaha töhfə verən təşəbbüs və layihələr müzakirə edilə bilər. Növbəti görüşün keçirilməsi diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaq", - deyə Xələf Xələfov əlavə edib.

# Adil Əliyev: "Zəfər paradı Azadlıq meydanının xarakterini dəyişdi"

***"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 44 günlük Vətən müharibəsində qələbəmiz münasibətilə 2020-ci il dekabrın 10-da Bakı şəhərinin Azadlıq meydanında keçirilmiş Zəfər paradını birlikdə qəbul etmələri böyük beynəlxalq hadisə kimi dünyanın diqqətini çəkdi".***



SİA-nın məlumatına görə, bu fikirləri Milli Məclisin sədr müavini Adil Əliyev mövzu ilə bağlı fikirlərini açıqlayarkən vurğulayıb. Onun sözlərinə görə, bir sıra beynəlxalq ekspertlər Zəfər paradın, sadəcə olaraq, Azərbaycanın Ermənistan üzərində qələbəsinin deyil, eyni zamanda, iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında yeni geosiyasi ittifaqın yaradılmasının təntənəsi kimi xarakterizə etdilər: "Daha sonra 15 iyun 2021-ci il tarixində Azərbaycan və Türkiyə prezidentlərinin Şuşada imzaladıqları müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi bunu bir daha təsdiq etdi. Bu isə Azərbaycanın müharibədə əldə etdiyi qələbə sayəsində regionda yaratdığı yeni geosiyasi reallığın əsas komponentidir".

Sədr müavini onu da xatırladıb ki, Zəfər paradında Azərbaycan və türk əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər, eyni zamanda, adi insanlar axın edərək İlham Əliyevi və Rəcəb Tayyib Ərdoğanı salamladılar.

Adil Əliyevin sözlərinə görə, 2018-ci ilin 15 sentyabrında Bakının erməni-daşnak qüvvələrinin və onların havadarlarının işğalından azad edilməsinin 100 illiyinə həsr edilmiş paradda da Azərbaycan və Türkiyə prezidentləri, eləcə də Azərbaycan və Türkiyə əsgərləri iştirak etmişdilər: "100 il əvvəl də Azərbaycan və Türkiyə bir yerdə idi, bu gün də. Amma bugünkü parad və bugünkü Azərbaycan 100 il əvvəlkindən tam fərqlidir. Bu gün Azərbaycan zəif, köməksiz, dağınıq ölkə deyil, güclü iqtisadiyyatı, müstəqil daxili və xarici siyasəti və müzəffər ordusu olan Azərbaycandır. 100 il əvvəl Türkiyə çətin vəziyyətdə olan Azərbaycanın köməyinə gəlmişdi. Bu gün isə Türkiyə güclü Azərbaycanla müttəfiqliyindən qürur duyur və Azərbaycan-Türkiyə münasibətləri qardaşlığa və bərabərhüquqlu münasibətlərə əsaslanır. 100 il əvvəl Bakı işğaldan azad edilərək ilk Azərbaycan Cümhuriyyətinin paytaxtı elan edildi. Lakin, çox təəssüf ki, 2 il keçmədən cümhuriyyət süquta uğradı. Sovet dövründə Azadlıq meydanında 1 may və sair kimi parad və tədbirlər keçirilirdi. SSRİ-nin son illərində isə burada keçirilən tədbirlər təklənmiş, ədalətsizliklə üzləşmiş və lidersiz vəziyyətdə qalan xalqın etiraz nümayişləri idi. 2020-ci il dekabrın 10-da baş tutan Zəfər paradı Azadlıq meydanının xarakterini dəyişərək onu möhtəşəm Zəfərimizin, ərazi bütövlüyümüzün bərpasının və Azərbaycan-Türkiyə birliyinin təntənəsinin qeyd edildiyi əsas məkana çevirdi".

O, həmçinin bildirib ki, zəferimizin hərəkətverici qüvvəsi olan gənclərimizin və əsgərlərimizin yüksək vətənpərvərlik ruhu, mənəvi-psixoloji hazırlığı, kiminsə torpağını işğal etmək yox, məhz öz doğma torpaqlarımızı azad etmək uğrunda mücadilə aparmağımız bizə Ermənistan tərəfi ilə müqayisə olunmaz üstünlük və güc vermişdir: "Ermənistan ordusunda 44-günlük Vətən müharibəsi ərzində 10 mindən çox fərarilik halının olması, bunun tam əksinə olaraq, Azərbaycan ordusunun döyüş qabiliyyətinin artırılması üstünlük və gücümüzün göstəricisidir. Gənclərimizin və əsgərlərimizin Vətənə sevgi, dövlətə və dövlətçiliyə sədaqət ruhunda formalaşması ölkəmizdə aparılan uğurlu gənclər siyasətinin bariz nümunəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin güclü siyasi iradəsi, ordu və xalq arasında möhkəm birliyin sayəsində əzəli torpaqlarımız işğaldan azad edildi. Bu, bir daha xalqımızın inam və iradəsinin, qələbə əzminin heç vaxt qırılmadığını nümayiş etdirdi. Zəfərə doğru gedən yolda ardıcıl xarici siyasət və diplomatiyanın həyata keçirilməsi, hərb elminin ən müasir yanaşmalarına əsaslanan sistemli ordu quruculuğu, hərbçilərimizin peşəkarlığının daim yüksəldilməsi, ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması hər zaman dövlətimizin prioritet məsələlərindən olub.

Vurğulamaq lazımdır ki, Vətən müharibəsində tətbiq etdiyimiz taktika dünyanın qabaqcıl hərbi akademiyalarını və müxtəlif ölkələrin, o cümlədən böyük dövlətlərin baş qərargahlarını təəccübləndirmiş, hərbi strategiyamız, müharibə aparma metodlarımız onların diqqətini çəkib. Azərbaycan Silahlı Qüvvələri tərəfindən dünyada ilk dəfə dronlardan, eləcə də süni intellektə əsaslanan texnologiyalardan və elektron müharibə vasitələrindən istifadə olunması bu gün ən çox diqqət mərkəzindədir. Nüfuzlu hərbi ekspertlər və ixtisaslaşmış beyin mərkəzlərinin fikrincə, məsələ sadəcə dronların kütləvi tətbiq edilməsində deyil. Əslində, Azərbaycanın böyük ustalıq və məharət sərgiləyərək dronları digər hərbi texnika və döyüş vasitələri, xüsusən də ağır artilleriya ilə indiyə qədər hərb sənətində görünməmiş dərəcədə effektiv, mükəmməl koordinasiyalı və ahəngdar tərzdə tətbiq etməsi müharibənin taleyini həll edib", Milli Məclisin sədr müavini Adil Əliyev Zəfər paradının keçirilməsinin birinci ildönümü münasibəti ilə münasibətini açıqlayarkən vurğulayıb.

**Rövşən RƏSULOV**

# İtaliya mətbuatı: Azərbaycan Ermənistanı Beynəlxalq Ədalət Məhkəməsinin qərarını dərhal yerinə yetirməyə çağırır




Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrəti təşviq etməsini qadağan edən müvəqqəti tədbirlər üzrə Azərbaycanın vəsatətini təmin etməsinə dair Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatı İtaliyanın "Kmetro0", "Agenzia Nova", "Notizie Geopolitiche" və "Giornale Diplomatico" kimi kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılıb.




AZƏRTAC xəbər verir ki, məlumatlarda Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən Ermənistan tərəfinə azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tapşırdığı, sözügedən qərarın Azərbaycan tərəfindən alqışlandığı və Ermənistanın Məhkəmənin qərarını dərhal yerinə yetirməyə çağırıldığı qeyd olunub. Habelə bildirilib ki, Ermənistan tərəfindən qaldırılan saxlanılan erməni əsilli şəxslərin dərhal azadlığa buraxılması, habelə Bakıdakı Hərbi Qənimətlər Parkının dərhal bağlanmasına dair vəsatətlər məhkəmə tərəfindən rədd edilib.

Yazılarda, həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında ölkəmizin Məhkəmənin irqi ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı qeyd etdiyi tədbirlərə əməl edəcəyini bildirdiyi vurğulanıb. Bu xüsusda, qeyd olunub ki, Azərbaycanın Beynəlxalq Konvensiyalarla üzərinə götürdüyü öhdəliklərə sadiqdir. eləcə də Azərbaycan Xarici İşlər Nazirliyinə istinadla Azərbaycanın beynəlxalq hüquq çərçivəsində bütün vətəndaşlarının hüquqlarını qorumağa və Ermənistanın beynəlxalq hüquq pozuntularına görə cavabdehlik daşımasını tələb etməyə davam edəcəyi diqqətə çatdırılıb.




# Əhməd İsmayılov: "Media haqqında" Qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar deməkdir

## "Media haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilib

***Dekabrın 10-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilib. İclasda ölkənin bir sıra media qurumlarının və aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və nümayəndələri iştirak ediblər.***



AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli Fərmanın hazırkı dövrdə bu sahədə islahatların yol xəritəsi olduğunu bildirib. Azərbaycan mediasının Vətən müharibəsi və ondan sonrakı dövrdə yüksək vətənpərvərlik və dövlətçilik nümunəsi nümayiş etdirdiyini deyən Milli Məclis sədrinin birinci müavini "Media haqqında" qanunu bu sahədə keyfiyyətcə yeni islahatlara töhfə olaraq dəyərləndirib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc müzakirəyə çıxarılan "Media haqqında" qanun layihəsinin söz və mətbuat azadlığı sahəsində dövlətin yeni hədəflərini müəyyənləşdirməyə, onun iqtisadi bazasını, kadr potensialını və peşəkarlıq səviyyəsini artırmağa, KİV sahəsində suverenliyimizi qorumağa xidmət edəcəyini deyib. O, informasiya siyasətinin əhəmiyyətindən danışaraq, dövlətimizin başçısının müharibə dövründə təxminən 30 dəfə müsahibə ilə çıxış etdiyini, bununla düşmənə mənəvi, siyasi, diplomatik zərbələrin endirildiyini vurğulayıb.

Qanun layihəsi barədə fikirlərini açıqlayan Zahid Oruc qeyd edib ki, sənəd hazırlanarkən bu günün reallıqları, kütləvi informasiya vasitələrinin fəaliyyətinin daha səmərəli tənzimlənməsi məsələləri, bu sahədə beynəlxalq təcrübə nəzərə alınıb, bir çox KİV nümayəndələri ilə müzakirələr aparılıb. Layihə dövlətimizin başçısının müvafiq Fərmanından sonra yaradılan İşçi Qrupu və Milli Məclisin üzvləri ilə birgə hazırlanıb. Bildirilib ki, media sahəsində sürətlə dəyişən çağırışları və tələbləri tənzimləmək üçün yeni qanuna ehtiyac yaranıb. Bu qanun qəbul edildikdən sonra "KİV haqqında" və bu sahəni tənzimləyən digər qanunlar qüvvədən düşmüş hesab olunacaq.

Diqqətə çatdırılıb ki, yeni qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Layihə 9 fəsil 78 maddədən ibarətdir. Qanun Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, həmçinin ölkə hüdudlarından kənarda olan və fəaliyyəti Azərbaycan ərazisinə və əhalisinə istiqamətlənmiş bütün media subyektlərinə, kənarda yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə, habelə jurnalistlərə şamil edilir. Bildirilib ki, qanun layihəsində əsas anlayışların yeni redaksiyada şərhi verilib, media subyektləri, o cümlədən audiovizual media, çap mediası, onlayn media və informasiya agentliklərinin dairəsi, onlara dair tələblər öz əksini tapıb.

Sənəddə media sahəsində fikir müxtəlifliyini və fəaliyyət azadlığını təmin etmək, ölkədə hər kəsin informasiya ilə təmin olunması üçün şərait yaratmaq, medianın inkişafını təşviq etmək, media subyektlərinin və jurnalistlərin fəaliyyətini stimullaşdırmaq, rəqabət mühitini təmin etmək, bərabər fəaliyyət imkanları yaratmaq bu sahədə dövlətin əsas vəzifələri kimi göstərilib.

Qanun layihəsində jurnalistlərin fəaliyyətinə dair məsələlər, o cümlədən Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq vəsiqənin verilməsi, onlara bəzi imtiyazların müəyyənləşdirilməsi, dövlət qurumlarında jurnalistlərin akkreditasiya olunması qaydaları, jurnalistin peşəkar fəaliyyəti üçün şəraitin yaradılması və digər məsələlər müvafiq maddələrdə öz əksini tapıb.

Sonra iclasda çıxış edən qanun layihəsini hazırlayan işçi qrupunun rəhbəri, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, ölkə Prezidenti tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalandıqdan sonra Medianın İnkişafı Agentliyinin yaradılması və "Media haqqında" qanun layihəsinin hazırlanması ilə bağlı işlərə başlanması milli informasiya məkanında davamlı inkişafın dövlət üçün prioritet məsələ olduğunu göstərir. Fərmana uyğun olaraq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi və digər mühüm şərtləri özündə birləşdirən innovativ imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsini təmin etmək media sahəsində islahatların əsas məqsədlərindəndir. Bununla yanaşı, media sahəsində normativ-hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması əsas hədəflər kimi müəyyənləşdirilib.

Əhməd İsmayılov bildirib ki, "Media haqqında" qanun layihəsini hazırlamaq məqsədilə Milli Məclisin üzvlərinin, ekspertlərin, Milli İnkişaf Agentliyinin nümayəndələrinin təmsil olunduğu işçi qrupu yaradılıb. Qanun layihəsinin məqsədi daxili informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi və medianın cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması yolu ilə yerli medianın inkişafına təkan verməsi, informasiya mühitinin rəqabətliliyinin artırılmasıdır. Qeyd olunub ki, layihəyə daxil edilmiş mütərəqqi normalar sayəsində ölkə mediasında şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinin əsaslarının təmin edilməsi, ictimaiyyət və media arasında qarşılıqlı etimadın gücləndirilməsi mümkün olacaq.

Diqqətə çatdırılıb ki, yeni qanuna media və media subyektləri anlayışları daxil edilib, ilk dəfə olaraq jurnalist anlayışı şərh edilib və yeni layihəyə əsasən, əmək müqaviləsi ilə fəaliyyət göstərən müxbirlərə də jurnalist statusu verilir. Bununla yanaşı, çap mediası, audiovizual və onlayn media subyektlərinin, informasiya agentliklərinin, televiziya və radio yayımı sahəsində fəaliyyət göstərən subyektlərin konkret dairəsi müəyyənləşdirilib. Qeyd olunub ki, layihədə müəllif hüquqlarının qorunması ilə bağlı müddəalar media sahəsində orijinal və yenilikçi ideyaların təbliğini dəstəkləyir, başqa media subyekti və jurnalistin materialından icazəsiz istifadə hallarının qarşısının alınması yollarını müəyyən edir.

Qeyd olunub ki, Azərbaycan Respublikasında media subyektlərinə, onların redaksiyalarına, jurnalistlərə dair məlumatların sistemləşdirilməsi məqsədilə media reyestrinin formalaşdırılması nəzərdə tutulub. Sənədə əsasən, çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Çap mediası və onlayn media subyekti təsis etmək istəyən şəxs çap mediası məhsulunun istehsalından və onlayn materialın yayımlanmasından əvvəl rəsmi müraciət etməlidir. Reyestrin təşkili güzəştlərin və imtiyazların tətbiq olunan media subyektlərinin və jurnalistlərin dairəsinin müəyyənləşdirilməsi yolu ilə onların inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslarını formalaşdırmağa imkan verəcək.

Bildirilib ki, layihədə beynəlxalq yanaşma nəzərə alınmaqla, media sahəsində baş verən qanunazidd hallara məhkəmə tərəfindən hüquqi qiymət verilməsi nəzərdə tutulub. Sənədə əsasən, bütün media sahələri vahid qanunla tənzimlənir. Qanun layihəsinin qəbul edilməsi ilə "Kütləvi informasiya vasitələri haqqında" və "Televiziya və Radio yayımı haqqında" qanunların ləğv edilməsi nəzərdə tutulub.

"Media haqqında" qanun layihəsinin hazırlanması dövlətin siyasi iradəsini təcəssüm etdirir. Bu layihə media sahəsində hüquqi normativ bazanın yaradılması və jurnalistlərin peşəkarlığının artırılmasını, digər mühüm məqamları özündə ehtiva edir. "Media haqqında" Qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ deməkdir. İcraçı direktor diqqətə çatdırıb ki, qanun qəbul edilməsində məqsəd daxili məhsulun keyfiyyətli hazırlanması, paylanması, ölkənin prinsiplərinə, dövrün tələblərinə uyğunlaşdırılmasıdır.

Qanun layihəsində bir çox məsələlərin əks olunduğunu qeyd edən Əhməd İsmayılov layihədə müəllif hüquqlarının qorunması ilə bağlı vacib müddəaların öz əksini tapdığını deyib. KİV-in hüquqlarının, fikir, söz azadlığının təmin edilməsi, bərabər imkanların yaradılması mühüm amillər kimi diqqət çəkir. Media savadlılığının artırılması və media sahəsində çalışanlar üçün imtiyazların müəyyən edilməsi də qanun layihəsində yer alıb.

Sonra iclasda qanun ətrafında geniş müzakirələr aparılıb. Milli Məclisin deputatları Qüdrət Həsənquliyev, Elman Nəsirov, Razi Nurullayev, Naqif Həmzəyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, "APA Group"un baş direktoru Vüsalə Mahirqızı, media eksperti Qulu Məhərrəmli, "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev, "Teleqraf" media qrupunun rəhbəri Aynur Camalqızı, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, Real-TV-nin baş direktoru Mirşahin Ağayev, "Qafqazinfo.az" saytının rəhbəri Elbrus Ərud, Xəzər TV-nin baş direktoru Murad Dadaşov, "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədri Rövşən Məmmədov, "Ayna", "Zerkalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu, Mətbuat Şurası sədrinin müavini Ümid Mirzəyev, "Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev "Media haqqında" qanun layihəsi barədə fikirlərini açıqlayıblar, sənədin medianın inkişafında yeni imkanlar yaradacağını bildiriblər. Müzakirələr zamanı bir sıra qeyd və təkliflər də səsləndirilib.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, qanun layihəsini hazırlayan işçi qrupunun rəhbəri, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli qanun layihəsinin hazırlanması prosesi zamanı görülən işlərdən bəhs ediblər, sənədlə bağlı səsləndirilən fikirlərə aydınlıq gətiriblər, iştirakçıları maraqlandıran bir sıra sualları cavablandırıblar.

İclasın sonunda "Media haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Bir neçə gündür ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi müzakirə olunur. Dövrün tələbləri ilə media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" yeni qanunun qəbul edilməsinə həqiqətən böyük ehtiyac var. 1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bu günə kimi dəfələrlə dəyişdirilib və müasir çağırışlarla uzlaşmır.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Media Qanunu: niyə qəbul olunmalıdır, nələri dəyişəcək?



ANALİZ

Bütün dünyada məsuliyyətli media yalnız qanunların yaxşı işlədiyi şəraitdə inkişaf edir. Azərbaycanın yeni "Media haqqında" qanun layihəsi məhz məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi qanun layihəsi kimi xarakterizə olunur. "Media haqqında" qanunun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ açacağı qeyd olunur.

Yeni qanun layihəsi media subyektlərinin dəqiq təsnifatını verir və eyni zamanda jurnalistin sosial portretini müəyyənləşdirən vasitə kimi çıxış edir. Qanun həm də dövlət-media münasibətlərində əsas elemetlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə xidmət edəcək.

Nəzərdə tutulan məsələlərdə biri də, bütün dünyada olduğu kimi, bzidə də Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin təqdim olunmasıdır. Bu, könüllülük prinsipi əsasında həyata keçirilsə də, media mühitinin sağlamlaşmasına müsbət təsir göstərəcək. İndi ortalıqda 50 mindən artıq saxta jurnalist vəsiqəsi ilə dolaşan var ki, bu da medianı gözdən salmaqla yanaşı, cəmiyyətə də problem yaradır, reketçiliyə, dezinformasiya yayılmasına şərait yaradır. Ona görə də, əsil jurnalistlərin ümumi bir reyestri olması məqsədəuyğun hesab edilir.

Qanun layihəsində nəzərdə tutulanların nəyə səbəb olacağına qısaca aydınlıq gətirməyə ehtiyac var:

**1.** Jurnalistlərin Media Reyestrinə daxil edilməsi könüllü xarakter daşıyır. Agentlik tərəfindən verilən jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə bilər. Qanunda təsbit olunan "jurnalist anlayışı" xidmət müqaviləsi əsasında işləyən jurnalistləri də əhatə edir. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqildirlər. Reyestrin məqsədi media subyektlərinin sayının müəyyənləşdirilməsi, bununla da media subyektlərinə və onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin edilməsidir.

**2.** Qanun sosial şəbəkələrin və "blogger"lərin fəaliyyətini tənzimləmir. Onlar heç bir vahid vəsiqə almadan, əmək müqaviləsi olmadan, sərbəst şəkildə fəaliyyət göstərəcəklər.

**3.** Son vaxtlar geniş yayılmış və sayı sürətlə artan internet televiziyaların lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır. Lisenziya almayan internet televiziyalar öz fəaliyyətlərini maneəsiz davam etdirə biləcəklər.

**4.** Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ təsəvvürlərin aradan qaldırılmasına şərait yaradacaq, ictimaiyyət və media arasında qarşılıqlı etimadın gücləndirilməsini təmin edəcəkdir.

**5.** Media subyektlərinin istehsal etdikləri məhsullar üzərindəki müəlliflik hüquqlarının qorunması təmin ediləcək, media subyektlərinin bir-birlərindən xəbər "oğurlamaq" vərdişləri aradan qaldırılacaq, xəbər uğrunda mübarizə və xəbər yaratmaq bacarıqlarının inkişafı təşviq ediləcəkdir.

**6.** Çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Bu da media azadlığının ən bariz nümunəsidir. Çap mediası subyektlərinin fəaliyyətə başlamazdan əvvəl bu barədə məlumat verməsi isə, yeni bir prosedur deyil və artıq bu istiqamətdə çoxillik təcrübə mövcuddur. Sadəcə, hazırda bu məlumatların sistemləşdirilməsi, müvafiq yanaşmanın onlayn media subyektlərinə də tətbiq olunması və sistemləşdirilmiş məlumatlar bazasının Media Reyestri adlandırılması nəzərdə tutulmuşdur.

**7.** Jurnalistlərinin məlumat bazasında qeyd olunması onların fəaliyyətinin daha səmərəli təşkilini və hüquqlarının ən yüksək səviyyədə müdafiəsini təmin etmək, heç bir qanuni əsası olmadan özünü media subyekti və ya jurnalist kimi təqdim edən və qeyd olunan statusdan sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısını almaqdır.

**8.** Müvafiq Qanunun predmeti media subyektləri və jurnalistlərin media sahəsində fəaliyyətləri ilə bağlı münasibətlərdir. "Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət bu Qanunun təsir dairəsinə daxil deyil.

Göründüyü kimi, bəzi dairələrin ətrafında süni hay-küy qopardığı Media qanununun heç bir mənfi tərəfi yoxdur. Tam əksinə, qanun bu sahədə qayda-qanun yaratmaq, mövcud xaosun və anaxiyanın qarşısını almaq, informasiya məkanının təmizliyinin və jurnalistikanın inkişafının təmin edilməsini şərtləndirəcək.

### Media nədir və nə işlə məşğul olmalıdır?

Media ictimai rəyə ciddi təsir edən, dövlət siyasətini ictimai müzakirəyə çıxaran, cəmiyyəti informasiya ilə təmin edən, maariflənməyə xidmət göstərən əsas ictimai institut olduğundan onun əhəmiyyəti son dərəcə vacibdir.

Məlum olduğu kimi, Azərbaycanda 5000-ə yaxın media vasitəsi qeydiyyatdan keçdiyi halda ortalıqda normal fəaliyyət göstərən maksimum 50 ciddi və peşəkar media vasitəsi var. Bəzi məlumatlara görə, Azərbaycanda 60-70 min nəfər cibində jurnalist vəsiqəsi gəzdirir, jurnalistika ilə məşğul olanların sayı isə uzağı 5 min nəfər olar.

Bəs qalanları nə işlə məşğuldur? Əsasən, reketçiliklə, dezinformasiya yaymaqla, xarici dairələrdən alınan tapşırıq əsasında təxribat xarakterli məlumat yaymaqla və sair təbliğat formaları ilə.

Media cəmiyyətdə o vaxt nüfuz qazanacaq ki, peşəkarlardan ibarət heyətə malik ciddi qəzetlər, agentliklər və xəbər saytları sırf oxucu auditoriyası toplamağa, cəmiyyətə faydalı olmağa hesablanmış rəqabətə girişəcək. O zaman bu mətbuat vasitələrinin hansının özünü doğruldacağı məlum olacaq. Yoxsa, "xoruz səsi eşitməmiş" adlar qoyulan "qəzetlər" və saytlar mətbuatın və jurnalistlərin adını batırmaqla, onlara cəmiyyətin nifrətini qazandırmaqla məşğul olmaqda davam edəcəklər.

Heç kimə sirr deyil ki, bəzi şəxslərin fikir plüralizmindən və söz azadlığından sui-istifadə edərək şantaja əl atması, böhtan xarakterli məlumatlar yayması Azərbaycan cəmiyyətinin KİV-lərə olan inamına böyük zərbə vurur.

Mətbuatın fəaliyyətini analiz edərkən məsələyə 2 kontekstdən yanaşmaq olar- söz və mətbuat azadlığı senzura daxilində və ya ultra-azadlıq kimi. Nəzəri və praktiki cəhətdən hər iki sistemdə ciddi problemlərin olduğu sirr deyil.

Birincidə- media və söz azadlığına sərt senzura qoyulduqda dövlət məmurları və başqaları bundan sui-istifadə edir, jurnalistlərə təzyiq göstərir, cəmiyyətə çatdırılması vacib olan informasiyaları ustalıqla gizlədə bilirlər. Bu sistemdən avtoritar ölkələrdə geniş istifadə edilir. Azərbaycan demokratik ölkə olduğundan bu yolu qoyaq kənara.

İkincidə- ifrat-azadlıq şəraitində də başqa problemlər yaranır. Bu zaman jurnalistlər vəziyyətdən sui-istifadə edə, cəzasızlıq sindromunun yaratdığı imkanlardan şəxsi və korporativ maraqlar üçün yararlana bilirlər. Ona görə də, dünyanın heç bir ölkəsində mediada ultra-azadlıq sistemi yoxdur.

Son dövrlərdə mediadan şəxsi məqsədlər üçün istifadə, şərəf və ləyaqətin ləkələnməsi, insan hüquqlarının pozulması, şəxsi və işgüzar həyata müdaxilə, milli və dini zəmində qarşıdurma yaratmağa cəhdlər, anti-dövlət təbliğatı aparma hallarının sayı-hesabı yoxdur.

Bu faktlar media qanunvericiliyi və ictimai qınaq kontekstindən nəzərdən keçirildikdə ortaya belə bir sual çıxır- İfrat mətbuat azadlığı anarxiyaya və özbaşınalığa, insan hüquqlarının və qanunların pozulmasına, milli və dövlət maraqlarının zərbə altına qoyulmasına gətirib çıxarmırmı?

Bu suala cavab vermək üçün əvvəlcə vəziyyəti analiz etməyə ehtiyac var. Faktiki olaraq, elektron və print mediada tərəfsizlik, peşəkarlıq, obyektivlik kimi prinsiplərin arxa plana keçirildiyi müşahidə edilir. Əvəzində sifarişli, qərəzli, reklam xarakterli və cəmiyyətin tələbatını ödəməyən materiallar çoxluq təşkil edir.

Bunları nəzərə aldıqda, qətiyyətlə demək mümkündür ki, mediada ultra-azadlıq nə cəmiyyət üçün, nə də peşəkar jurnalistlər üçün optimal yol deyil. Amma təbii ki, 1-ci yolun- sərt senzura sisteminin də uyğun olmadığı aydındır. Hər məsələdə "qızıl orta" deyilən bir praktika var ki, o, bütün hallarda öz müsbət təsirini göstərir. Bunu 3-cü yol adlandıraq.

Azərbaycanda bu 3-cü yolun seçildiyi aydın görünür. Dövlətin dünya təcrübəsi ilə milli ənənələri uzlaşdıraraq hər 3 tərəfi (cəmiyyət, dövlət və media) qane edəcək optimal tənzimlənmə mexanizmi yaratma cəhdi təqdirəlayiqdir.

Konkret olaraq, hazırda söz və mətbuat azadlığı üçün bütün imkanlar var. Kim istəsə icazəsiz qəzet, jurnal, agentlik, internet saytı aça bilir. İstənilən şəxsin hansısa yayım orqanında və ya sosial şəbəkələrdə fikrini ictimailəşdirmək imkanları var.

Bu imkanlardan kimin necə istifadə etməsi isə, cəmiyyətin, fərdlərin problemidir. Məsuliyyət tələb edilmədikdə cəza mexanizmi, ictimai qınaq olmadıqda isə ortada ciddi mətbuat olmur. Bu ikisinin arasında 3-cü yolun formalaşması üçün zaman lazımdır.

Azərbaycan mediası bu mərhələni keçməlidir. Əks halda, cəmiyyətin inamını tamam itirəcək, ənənəvi mətbuat sosial şəbəkələr tərəfindən tamam sıradan çıxarılacaq. Buna imkan vermək olmaz. Parlamentdə qəbul olunacağı gözlənilən yeni Media qanununun bu sahədə vəziyyəti fundamental olaraq dəyişəcəyinə ümid etmək olar.

*Elçin Bayramlı*



***Azərbaycan bu gün qazandığı tarixi Zəfəri ilə dünyanın diqqətindədir. İqtisadi və siyasi müstəqilliyini təmin etməklə, ordusunu gücləndirməklə, xalq-Prezident birliyinin sarsılmazlığını təsdiqləməklə, eyni zamanda, hər bir sınaqdan üzüağ çıxıb məğrurluğunu, yenilməzliyini dünyaya nümayiş etdirməklə Zəfərinə yol açan Azərbaycan artıq diktə edən tərəf kimi çıxış edir. Bu uğurumuz ulu öndər Heydər Əliyev siyasətinin təntənəsidir. Müstəqilliyimizin yenidən bərpasının 30 ilini təhlil etdikdə ümummilli lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinin miqyası, bu günümüz və gələcəyimiz üçün hazırlanmış inkişaf strategiyasının əsil mahiyyəti daha aydın görünür. Azərbaycan ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə Liderin gücünün, qətiyyətinin, siyasi iradəsinin şahidi oldu.***

# Ulu öndərin şah əsəri olan müasir müstəqil Azərbaycanı bundan sonra yalnız uğurlar müşayiət edəcək

Dövlətinin, xalqının gələcəyini düşünən Lider inkişaf konsepsiyasını elə hədəflər üzərində qurur ki, davamlı inkişaf qaçılmaz olur. Ulu Öndər bu nümunəni nümayiş etdirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdıb xilaskarlıq missiyasını yerinə yetirməklə Azərbaycanın qarşısında geniş imkanlar açdı. Daim təbii sərvələrinin sahibi olmaq, ondan öz mənafeyi naminə bəhrələnmək arzusunda olan xalqımız bu istəyini Ümummilli Liderin qaydışından sonra reallaşdırdı. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu imkanlarının təqdimatı oldu. Həmçinin neft gəlirlərindən səmərəli istifadəni təmin etmək üçün 1999-cu ildə Dövlət Neft Fondu yaradıldı. Ümummilli lider Heydər Əliyev dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadən hazırladığı iqtisadi strategiyası ilə Azərbaycanı müstəqilliyinin yenidən bərpasının ilk illərinin çətinliklərindən, bəlalarından xilas etdi. Hər zaman qeyd olunduğu kimi, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onun qorumaq ondan da çətindir. Bu baxımdan bu fikri böyük inamla qeyd edirik ki, Azərbaycanın gələcəyi üçün müəyyənləşdirilən perspektivlərin reallaşması Böyük qayıdışa əsaslanır. Ulu öndər Heydər Əliyev iqtisadi və siyasi islahatların paralelliyini qorumaqla hər bir hədəfə zamanında nail oldu. Ulu öndər Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmışdır. 1993-2003-cü illərdə dövlətçiliyimizin əsasları yaradıldı. 1995-ci ilin noyabrın 12-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan Konstitusiyamız referendum yolu ilə qəbul olundu. Ölkəmizdə çoxpartiyalı sistem yaradıldı. Demokratik, hüquqi dövlətin varlığını təsdiqləyən atributlardan biri kimi, seçkilərin azad, beynəlxalq standartlara uyğun keçirilməsi üçün mühüm adımlar atıldı, təkmil seçki sistemi formalaşdırıldı. Daxili siyasətini uğurla həyata keçirən Azərbaycanın xarci siyasətdə qazandığı uğurlar da təqdirəlayiqdir. Azərbaycanın xarici siyasət uğurları bu gün artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi bazanının yaradılmasını təmin etdi. Bununla yanaşı, Ulu Öndər, həmçinin bildirirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordunun olması vacibdir.

Ümummilli lider Heydər Əliyevin xidmətləri sırasında bu gün sıralarında 800 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının yaradılması dayanır. Bu partiyanın yaradılması ölkəmizin həyatında istinad nöqtəsi kim dəyərləndirilir. Belə ki, artıq ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı bir zərurət və tələb kimi səsləndirildi. Xalq onun Liderlik qətiyyətinin sayəsində bütün çətinlikləri arxada qoyurdu. Bu baxımdan Liderin ölkə həyatında böyük rol oynadığı hər zaman qeyd olunan həqiqətlər sırasındadır. Dahi şəxsiyyətin dövlətçilik təcrübəsi, siyasi iradəsi, hadisələrə düzgün yanaşma və seçim etmək bacarığı Azərbaycanın hər bir çətinliyi dəf etməsini şərtləndirdi.

Ulu öndər Heydər Əliyevin xidmətlərindən saatlarla, günlərlə danışmaq olar. Arxada qalan hər il onun bu xidmətlərinin daha bir tərkib hissəsinin açıqlanmasında əhəmiyyətli rol oynayır. Çünki Ümummilli Liderin fəaliyyəti ilə bağlı nə qədər kitablar, elmi məqalələr yazılsa da, onun fəaliyyətinin hər bir sahəsi zəngin mənbə, araşdırma mövzusu olduğu üçün tədqiq edilir.

Ümummilli Liderin xidmətlərindən bəhs edərkən onun şah əsəri olan müasir müstəqil Azərbaycanın qüdrətlənməsini təmin edən amillər önə çəkilir ki, onlardan ən mühümü 2003-cü ildə xalqına göstərdiyi inam və etimad ünvanıdır. Ulu öndər Heydər Əliyevin 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciətini xatırlatmaq istərdim: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Dövlət başçısı İlham Əliyevin 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazandıqdan sonra keçirilən andiçmə mərasimində Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin vacibliyini bildirmişdir. Prezident kimi jurnalistlərə ilk müsahibəsində söylədiyi kimi, Azərbaycanda ölkəmizi hərtərəfli inikşaf etdirmək üçün gözəl zəmin yaranıb. Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyub. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır.

Son 18 ildə möhkəm təmələ əsaslanaraq həyata keçirilən təkmil islahatlar Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasını şərtləndirdi. Bu uğurların zirvəsində dayanan Azərbaycanın tarixi Zəfəridir. Xalqımız bu günü səbirsizliklə gözləyirdi. 30 ildən sonra 44 gündə işğala son qoymaq, ərazi bütövlüyümüzü təmin etmək qüruvericidir. Tarixi Qələbəmizdən dərhal sonra dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərləri tarixi hadisələr kimi qeyd olunur. Hər səfər soydaşlarımızın Böyük Qayıdışına doğru atılan addımdır. Tezliklə Qarabağımız və Şərqi Zəngəzur cənnət məkana çevriləcək, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar. Xalqımız tam əmindir ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində bütün hədəflər reallığa çevriləcək, Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan daha möhtəşəm uğurları ilə diqqətdə olacaq. Bundan sonra Azərbaycanı ancaq və ancaq uğur gözləyir.

***Ağalar Vəliyev,***
***Milli Məclisin deputatı***

# Zəmanəni qabaqlayan fenomen - HEYDƏR ƏLİYEV!

***Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına Tanrının bəxş etdiyi böyük şəxsiyyətdir. Və xalqımız ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 18-ci ildönümünü onun ən böyük arzusunun çin olmasının - Qarabağın düşməndən azad edilməsinin sevinci ilə qeyd edir. Bu gün Ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə millət atası Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi vəsiyyətini gerçəkləşdirdi.***



Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızın çağdaş tarixinə möhtəşəm zəfər salnaməsini yazdı. Azərbaycan misilsiz Qələbə qazandı. Bu qələbə müstəqil dövlətimizin gücünü, ölkəmizin qüdrətini, xalqımızın döyüş ruhunu, qələbə əzmini dünyaya bir daha təqdim etdi. Və ən əsas odur ki, bütün dünya Azərbaycanın bir dövlət olaraq gücünün bir daha fərqində oldu. Dünya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi, diplomatik hazırlığına, bacarıqlı dövlət rəhbəri, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə olduğuna bir daha əmin oldu, xalqımızın vətənpərvərliyini, milli birliyini gördü. Beynəlxalq aləm ordumuzun rəşadətinə, əsgərlərimizin igidliyinə şahidlik etdi. Biz də özümüzü xoşbəxt hesab edirik ki, Azərbaycan tarixində son yüzilliklərin ən parlaq qələbə tarixinin canlı şahidləri olduq. Gələcək nəsillərin keçmişə boylananda hər zaman böyük qürur hissi ilə xatırlayacağı günlərin canlı şahidlərinə çevrildik. Eyni zamanda, haqq davamızın nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Milli tariximizi nə qədər oxusaq da, gözəl bilsək də, ona hər zaman sadiq qalsaq da, Qarabağsız bu tarix, sanki tam deyildi. Məhz belə bir mənəvi boşluğu Ali Baş Komandanın böyük cəsarəti, qətiyyəti, Müzəffər Ordumuzun böyük ruh yüksəkliyi, döyüş hazırlığı tamamladı. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda, ümummilli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. Ölkə başçısının uğurlu rəhbərliyi, hərbi sahədə yeniliklərin tətbiq edilməsi, hərbi texniki bazanın möhkəmləndirilməsi tarixi zəfərin, tarixi Qələbənin qazanılmasında əsas amil oldu.

## 1969-CU İL - AZƏRBAYCANIN YENİ TARİXİNDƏ DÖNÜŞ İLİ

Qeyd edək ki, Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Hakimiyyətdə olduğu 35 il müddətində ulu öndər xalqının tarixi mənafeyi uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması, Azərbaycanın isə onun simasında özünə yeni fəaliyyət metodlarına malik rəhbər tapması hər ikisinin yüksəlişinin, xalqın da xoşbəxtliyinin başlanğıcı oldu! Azərbaycana rəhbərliyə başladığı gündən hər bir vətəndaş, bütövlükdə xalq ona arxa duran, mənafeyini qoruyub müdafiə edən, haqsızlıq və qanunsuzluqla barışmayan böyük qəlbli insanın hakimiyyətə gəldiyini düşünürdü. Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün zəmin hazırladı. Ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrləri xatırlayarkən deyirdi: "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı".

Azərbaycan sosial-iqtisadi vəziyyətinə görə SSRİ-nin tərkibində olan 15 respublika sırasında sonuncu yerlərdə qərarlaşırdı. Bütün göstəricilər üzrə belə idi. Amma Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra ilk 5 illikdə inkişaf baş verdi. Belə ki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə, göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Kəndlinin güzəranı və məişət şəraiti dəyişdi. Azərbaycan kəndi palçıq komalardan qurtularaq simasını dəyişdi. O vaxtdan həyatında minik avtomobili, ikimərtəbəli ağ mişar daşından evi, məişətində hər növ elektrik cihazları olan kəndli ailələri Azərbaycan kəndlisini xarakterizə edən başlıca əlamətə çevrildi. Bu gün elə bir kənd tapılmaz ki, orada Heydər Əliyev dövrünü xatırladan bir neçə "abidə"yə rast gəlinməsin.









Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir.

Ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə birinci rəhbərliyi dövründə Azərbaycanda fəaliyyət göstərən hərbi məktəblərlə maraqlanan ümummilli lider orada nəinki təhsil alanların, hətta dərs deyənlərin sırasında belə azərbaycanlıların təktük olduğunu bilmişdi. Çox keçmədən Ulu öndərin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Yeniyetmələr həvəslə burada oxumağa gəlir, sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində uğurla davam etdirirdilər. Qarabağ uğrunda döyüşlərdə məktəbin məzunları böyük şücaət göstərdi, bir çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü. Müstəqillik dövründə milli ordu quruculuğunda vaxtilə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbi bitirən zabitlərin əməyi böyük olmuşdur. Onlar bu gün də orduda ləyaqətlə xidmət edir, Heydər Əliyev ideyalarına sadiqliklərini nümayiş etdirirlər.



## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ZƏNGİN DÖVLƏTÇİLİK İRSİ DƏRİNDƏN ÖYRƏNİLİR, GENİŞ TƏBLİĞ OLUNUR

Bu gün Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi dərindən öyrənilir, geniş təbliğ olunur. Xüsusilə də, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu prosesdə müstəsna rolunu xüsusi vurğulamaq gərəkdir.

Ulu Öndərin zəngin mənəvi irsini, Onun azərbaycançılıq ideyasını gənc nəsillərə aşılamaq, Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir.

Bir sözlə, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli Liderimizin ideyalarına əsaslanır, Azərbaycanın inkişafına, milli məqsədlərin həyata keçirilməsinə müstəsna töhfələr verir. Fondun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli - layiqli töhfəsini verir. Heydər Əliyev Fondu, eyni zamanda, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eləcə də Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə çatdırılır. Fond həmçinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də məqsədyönlü və ardıcıl iş aparır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ARZULARINI GERÇƏKLƏŞDİRƏN QALİB LİDER İLHAM ƏLİYEV

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 18 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl, uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda, bu gün Azərbaycan dövləti İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. Bu dövrdə İlham Əliyev çox təzyiqlərlə üzləşdi. Lakin dövlətimizin rəhbəri onların hamısına qətiyyətlə, cəsarətlə sinə gərdi. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanın yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə cəzalandırdı. Xüsusilə, Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən Cənab İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətə gələn həqiqətdir ki, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi Cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü! Uzaqgörən və Əbədi Liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı.

8 noyabr 2020-ci il. Həmin unudulmaz tarix-Şuşanın erməni işğalından azad olunduğu gün Prezident İlham Əliyev Ulu Öndərin Fəxri Xiyabandakı müqəddəs məzarını ziyarət etdi və sonra Şəhidlər Xiyabanından xalqa müraciət edərək tariximizə qızıl hərflərlə həkk olunacaq bu sözləri dedi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan!".

Bəli, bu dövlətçilik tariximizlə yanaşı, həm də dünyanın yeni tarixinə yazılan bu qalibiyyət simvolunda xalqımızın iki övladının - Ulu Öndər Heydər Əliyevin və Böyük Sərkərdə, Prezident İlham Əliyevin adlarının qızıl hərflərlə həkk olunması artıq danılmaz bir gerçəklikdir - ATA vəsiyyətini və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi! Və bu gün Azərbaycan ən yüksək zirvələri fəth etməklə ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Və bu gün müqəddəs qələbə günündə hamımız Ulu Öndərin məzarını ziyarət edəcək, onun ruhuna dualar oxuyacağıq. Çünki çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıdırıq, çünki Qarabağ Azərbaycandır!



Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin bir zamanlar bütün dünyaya bəyan etdiyi kimi, Azərbaycan vətəndaşının ən gözəl sabahları öndədir, ən qüdrətli zamanları irəlidədir! Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir! Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Bu əsəri zənginləşdirən Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə davamlı uğurlara imzanın atılması, Azərbaycanın dünya dövlətlərinin imzaları arasında imzasının olmasıdır. Bu, Heydər Əliyev işığının nurlandırdığı yolun davamçısı Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur.

Bəli, Ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur! Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Və bu gün fəxr edirik ki, dahi öndərimizin ideyaları yaşayır və geniş şəkildə inamla Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və Heydər Əliyevin nurlu xatirəsi bundan sonra da qəlblərdə əbədi yaşayacaqdır. Bu gün



fəxr edirik ki, dahi öndərimizin ideyaları yaşayır və geniş şəkildə inamla həyata keçirilir. Ümummilli liderimizin Azərbaycan xalqı qarşısındakı möhtəşəm xidmətləri unudulmur, böyük minnətdarlıq hissi ilə daim yad edilir. Heydər Əliyevin nurlu xatirəsi bundan sonra da qəlblərdə əbədi yaşayacaqdır.

***RƏFİQƏ KAMALQIZI***

*Milli müstəqillik tarix boyu bütün xalqların, millətlərin ən çox arzusunda olduqları mənəvi istəyin əsas faktoru olmuşdur. Yaxın tarixi təcrübə onu göstərir ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəs şərti hesab olunur.*



# Xalqın əbədi lideri

Məhz Azərbaycanın milli müstəqilliyinin 70 ildən sonra yenidən bərpası dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə nəsib oldu. Bəli, bu gün əminliklə söyləmək olar ki, Heydər Əliyev bəşəriyyət tarixində mənsub olduğu xalqa və millətə milli dövlət müstəqilliyini yenidən qazandıra bilən, azadlıq adlı neməti xalqa çatdıra bilən fenomenal şəxsiyyətdir.



*Şahin Seyidzadə,*
*Millət vəkili*

Birmənalı olaraq deyə bilərik ki, Azərbaycanda ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, təməlində məhz Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət kursu dayanır. Heydər Əliyevin həm SSRİ-yə rəhbərlik etdiyi dövürdə, eləcə də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, ölkəmizin inkişafının təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan əhəmiyyətli işlər görmüş, ölkənin inkişafı üçün vacib qərarlar vermişdir.

Eyni zamanda, ölkədə gərgin və böhranlı siyasi vəziyyət yarandıqda xalq ümidini dahi siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevə bağlamış, olkənin böhrandan çıxarda biləcək yeganə siyasi lider kimi məhz ona arxalanmışdır.

Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər 1993-cü ildən başlayaraq ölkəni düşdüyü xaosdan, bölünmə, parçalanma təhlükəsindən xilas etdi.

Qısa müddət ərzində ölkənin həyatında aparıcı rol oynayan ictimai-siyasi şəxsləri ətrafında birləşdirərək Naxçıvanda 1992-ci il noyabrın 21-də keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. Digər tərəfdən, ölkədə 1993-cü ilin iyun hadisələri zamanı yaranmış olduqca çətin vəziyyət zamanı xalqın tələb və təkidi, iqtidarın çoxsaylı xahişi ilə Ulu Öndər Heydər Əliyev Bakıya geri dönmüş, ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi istiqamətində tarixi missiyasını həyata keçirməyə başlamışdır.

1993-cü il oktyabrında keçirilən seçkilərinin nəticələrinə müvafiq olaraq bir daha xalqın dərin etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyev ən qısa zaman kəsiyində özünün ümummilli maraqlara xidmət edən və ali dövlətçilik prinsiplərinə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi, vətəndaş birliyini, bütövlüyü və inkişafı təmin etmiş oldu.

Ümummilli lider Heydər Əliyev özünün bütün həyatı boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən hiss etmiş və bu arzunu öz həyat fəaliyyətinin əsas məqsədinə çevirmişdir. O, hər zaman istər çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi fikirlərində müstəqillik ideyasını xalqa açılamağa çalışmışdır.

Azərbaycanın inkişaf dövrünü əhatə edən tarixi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Hər zaman ölkənin çətin vəziyyətində xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini həyata keçirərək, dünyanın tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur.

# "Omikron" ştammının qarşısını necə almaq olar?

## HƏKİM-İNFEKSİONİST DANIŞDI

*"Azərbaycanda koronavirusla mübarizədə görülən işlər müəyyən zaman içərisində özünün əhəmiyyətini göstərib". Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Namiq Nəbiyev bildirib.*



Onun sözlərinə görə, son iki ildə aparılmış müayinə və müalicələrin nəticəsi



onu göstərir ki, artıq altı yüz minə qədər insanda bu xəstəlik aşkarlanıb: "Lakin buna baxmayaraq, ölüm faizi 1-1,2 arasındadır. Digər ölkələrlə müqayisədə bu çox yaxşı göstəricidir. Bildiyimiz kimi, yeni "Omikron" ştammı isə Azərbaycanda heç kimdə aşkarlanmayıb. Hazırda ölkə əhalisi koronavirusla mübarizədə peyvəndlərin vurulmasında iştirak edirlər. Bu da öz növbəsində hansı vaksin olmasından asılı olmayaraq, öz müsbət təsirlərini göstərir. Eyni zamanda "Omikron" ştammından da qoruyur. Buna görə də narahatçılığa əsas yoxdur. Sadəcə zamanında vaksin olunmaq lazımdır. Çünki bu, yoluxmanın qarşısının alınmasında böyük rol oynayır".

*Səbinə Hüseynli*

# Agentlik "Media haqqında" Qanun layihəsi ilə bağlı ifadə edilən fikirlərə münasibət bildirib

*Medianın İnkişafı Agentliyi (MEDİA) "Media haqqında" Qanun layihəsinin ictimai müzakirəsinin təşkili ilə bağlı bir sıra media nümayəndələri tərəfindən ifadə edilən fikirlərə münasibət bildirib. SİA MEDİA-ya istinadən münasibəti təqdim edir: ""Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 9.2-ci maddəsində normayaratma orqanının qərarı ilə normativ hüquqi aktın layihəsinin açıq (ictimai və ya peşəkar) müzakirəyə çıxarıla biləcəyi göstərilir.*




"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil edildiyi təsbit olunmuşdur.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1.10-cu maddəsində isə informasiya sahibinin normativ hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan onları açıqlamaq vəzifəsi müəyyən edilmişdir.

Qeyd olunan normaların məzmunundan göründüyü kimi qanun layihələrinin, o cümlədən "Media haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin ictimai müzakirəsinin təşkil edilməsi normayaratma orqanının, yəni Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətindədir, müvafiq layihələr ya razılaşdırılmaya ya da təsdiq olunmağa göndərildiyi andan açıqlanmalı olduğundan Milli Məclis bu istiqamətdə müddəaların yerinə yetirilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq "Media haqqında" qanun layihəsini açıqlamış, onu media nümayəndələrinin, ekspertlərin, vətəndaş cəmiyyəti institutlarının və bu məsələdə ictimai marağı olan digər şəxslərin müzakirəsinə təqdim etmişdir.

Məlumat üçün bildiririk ki, hal-hazırda müvafiq qanun layihəsinin mətni ictimaiyyətin geniş müzakirəsindədir və onun ayrı-ayrı normalarının mahiyyəti, məqsədəuyğunluğu ətrafında çoxsaylı media nümayəndələri və ekspertlərini əhatə edən qarşılıqlı fikir mübadiləsi aparılmaqdadır".

# Növbəti Zəfər bayramımız Zəngəzur dəhlizinin açılacağı gün olacaq



## İlham Əliyevin vurğuladığı kimi, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq: "İstəməsə, zorla həll edəcəyik"



***Ötən il dekabrın 10-da paytaxtımızda "Dəmir yumruq" adlı Zəfər paradının keçirilməsi ilə "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" çağırışını reallaşdıran Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tarixi missiyasını şərəflə yerinə yetirdi. Vətən müharibəsini Zəfərlə başa çatdıran, insanlara Qələbə sevinci yaşadan Azərbaycanın Silahlı Qüvvələri "xalq-ordu" birliyinin qüdrətini göstərdi. Bu Qələbə xalqımızın mübarizlik ruhunun, vətənpərvərliyinin, azadlıq uğrunda mübarizə aparmaq əzminin nümunəsi, Türkiyə-Azərbaycan həmrəyliyinin nümayişi idi.***



Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var idi. Azərbaycan xalqının 30 illik yurd həsrətinə son qoyan İkinci Qarabağ müharibəsinin təntənəsi olan paradda ən müasir hərbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş qüdrətli Azərbaycan Silahlı Qüvvələri ilə birgə düşmənin döyüş meydanlarında qoyub qaçdığı, Milli Ordumuz tərəfindən darmadağın edilmiş, qənimət götürülmüş sınıq-salxaq hərbi texnikaların nümayişi Ermənistana hərbi və mənəvi zərbə oldu. İşğal altında saxladıqları ərazilərdə möhkəmləndirdikləri istehkamlar, səngərlər, cəmləşdirdiyi yüzlərlə, minlərlə hərbi texnika Ermənistanı biabırçı məğlubiyyətdən xilas edə bilmədi. Azərbaycanın XXI əsrin tələblərinə uyğun apardığı döyüş əməliyyatlarında düşmənin fərarilərdən ibarət ordusu ilk günlərdən səngərləri tərk edərək təslim oldular, texnikaları metal parçasına döndü. Ermənistanın "güclü ordu" mifi darmadağın edildi. Prezident, Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə yaradılan Hərbi Qənimətlər Parkında "məskunlaşaraq" erməni rəzilliyini təsdiqlədi. Zəfər paradında hərbi qənimət kimi götürülən dağıdılmış erməni tanklarının, texnikasının nümayişi faşist, Ermənistanın havadarlarına mesaj idi. Ermənistana ən böyük siyasi, hərbi, diplomatik zərbə isə işğalçı dövlətin Bakıda Qənimətlər Parkının tezliklə bağlanması, erməni əsilli şəxslərin dərhal qaytarılması ilə bağlı vəsatətlərinin Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən rədd edilməsidir.

Zəfər paradının digər önəmi mərasimin dostluq və qardaşlığın rəmzi kimi tarixə yazılması, tribunada Prezident, Ali Baş Komandan İlham Əliyevlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın çiyin-çiyinə dayanması, qardaş ölkəni təmsil edən rəsmi şəxslərin iştirakı, hərbçilərinin Azadlıq meydanında nümunəvi keçidi oldu. Bütün dünya bir daha Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının sarsılmazlığını gördü. "Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, regionda modern silahlarla təchiz edilmiş Müdafiə Nazirliyini, Dövlət Sərhəd Xidmətini, Daxili İşlər Nazirliyini təmsil edən qoşunlarımız vəzifələrini layiqincə icra etdilər. Zəfər paradı Milli Ordumuzun gücünün, qüdrətinin nümayişi idi. Xalqımız əmin oldu ki, ən müasir döyüş texnikasına və təcrübəsinə malik ordumuz nəinki istənilən təxribatın qarşısını almağa, düşmənin bütün mövqelərini anında məhv etməyə qadirdir. Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərinin, hərbi birləşmə və tədris müəssisələrinin şəxsi heyətlərinin iştirak etdiyi Zəfər paradında ölkə ictimaiyyəti bir daha dövlətimizin müdafiə qüdrətinin , ordumuzun döyüş və qələbə əzminin şahidi oldu.

Zəfər paradında qətiyyətli sərkərdə, Ali Baş Komandan kimi qürurla çıxış edən, "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir" söyləyən dövlət başçımız onu da vurğuladı ki, Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır və xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb və yaşayacaqdır.

BMT Təhlükəsizlik Şurasının, bu təşkilatın Baş Assambleyasının kağız üzərində qalan qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin və digər qurumların qəbul etdikləri bəyanatlarda yer alan Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı ilə bağlı müddəaları öz gücünə yerinə yetirən Azərbaycanın haqq işini dəstəkləyənlərin sayı çoxaldı. Münaqişənin sülh yolu ilə həlli üçün yaranan hüquqi zəmindən istifadə etməklə müharibə variantının da istisna edilmədiyini dəfələrlə bəyan edən Azərbaycan Ermənistanın 30 illik işğalına 44 gündə son qoydu, işğalçını dəstəkləyənlərə ədalət dərsi verdi.

"Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik" söyləyən Prezident İlham Əliyev Ermənistan rəhbərliyinin "Qarabağ Ermənistandır" sayıqlamasının üstündən əbədi xətt çəkdi. Hər anı şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılan 44 gündə məğlub Ermənistana qalibə layiq dərs verdi. İlk hərbi əməliyyatlarda Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, Azərbaycan bayraqları qaldırıldı. Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi isə tarixi nailiyyətimiz oldu. İşğal altına düşmüş ilk şəhərimiz Şuşa erməni əsarətindən qurtaran son şəhərimiz olsa da, mədəniyyət paytaxtımızın sahiblərinə qaytarılması ilə ermənilərin yaratdıqları mif dağıldı.

"Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq. Halbuki bir çoxları, xüsusilə bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə demişdilər ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var" sözləri ilə də Ermənistana siyasi və hərbi müstəvidə qalib gəldiyini qürurla bəyan etdi. Döyüş meydanında, informasiya cəbhəsində, diplomatiyada Ermənistanı məğlub edən Azərbaycan tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. "Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq" söyləyən Prezident İlham Əliyevin xalqa hər müraciəti Azərbaycanın varlığının əbədiyyət rəmzi idi.

Zəfər paradında iştirakı ilə sevincimizə şərik olduğunu "Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət"" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik" sözləri ilə təsdiqləyən, Zəfərimizlə birgə qürur duyduğunu bildirən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, bu günə qədər siyasi və hərbi sahələrdə hiss edilən mübarizəmiz bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Bir milyon qaçqın və məcburi köçkünün doğma ocağına qayıtması üçün işğaldan azad edilən ərazilərdə aparılan quruculuq işlərində türkiyəli mütəxəssislərin iştirakını qardaş yardımı adlandıran Rəcəb Tayyib Ərdoğan Böyük Qayıdışın sürətləndirilməsi üçün qardaşlıq yardımını heç vaxt əsirgəməcəyini də bildirdi.

Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır: "Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür" söyləyən Rəcəb Tayyib Ərdoğan qardaşlıq duyğularını ifadə etdi.

Qarşıdakı Zəfər günümüz isə bütün türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin istifadəyə veriləcəyi gün olacaq. O gün yaxındadır və mütləq olacaq!

***Xuraman İsmayılqızı***

# Əbədiyaşar lider!

## YAP Sabunçu rayon təşkilatında Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib






***YAP Sabunçu rayon təşkilatında Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar görüş keçirilib. Görüşdə Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, müavinlər Rəna Fərəcova və Aftandil Hüzeynzadə, millət vəkili Əliabbas Salahzadə iştirak edib. Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib.Tədbiri giriş sözü ilə açan rayon təşkilatının sədri Misirxan Vəliyev bildirib ki, bu günlər biz müstəqil dövlətimizin memarı və qurucusu, Azərbaycan xalqının dahi oğlu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini yad edirik. Əslində, Ulu Öndər Heydər Əliyev hələ sağlığında Azərbaycan xalqının qəlbində özünə elə bir abidə ucaltmışdı ki, onun xatirəsi daim ürəklərdə yaşayır, Onu hər gün dərin minnətdarlıq hissi ilə anırıq. Xalqların, ölkələrin tarixində həqiqi liderlərin rolu danılmazdır. Heydər Əliyev dövlət başçısı və siyasi xadim kimi beynəlxalq vəziyyəti düzgün təhlil edərək, Azərbaycan dövlətinin müstəqilliyinin qorunması və inkişafı yolunda müstəqil siyasət apararaq xalqı öz ətrafında birləşdirməyi bacarmışdır.***

Daha sonra çıxış edən Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev dahi şəxsiyyət Heydər Əliyevin dövlətçiliyimizin qorunması və möhkəmlənməsində, Azərbaycanın sosial-iqtisadi inkişafında,eləcə də, hüquqi dövlət quruculuğu sahəsində misilsiz xidmətlərindən danışıb. O vurğulayıb ki, Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin mükəmməl ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşdırılması məhz Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Adil Vəliyev Heydər Əliyev siyasətinin bu gün Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

İclasda həmçinin Sabunçu Rayon İcra Hakimiyyətinin başçısının müavini Rəna Fərəcova, ərazi partiya təşkilatının sədri Natiq Musayev, fəal üzvlərdən Cəmşid Dərəlyəzli çıxış edərək Ulu Öndərimizin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib.

***Rəfiqə***

## Qaradağda Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib





Qaradağ rayonu, Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş dəyirmi masa keçirilib. SİA xəbər verir ki, tədbir iştirakçıları Heydər Əliyev adına parkda Ulu Öndərin abidəsini ziyarət edərək önünə tər çiçək dəstələri düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər. Yığıncaqda Qaradağ Rayon İcra Hakimiyyəti başçısı Süleyman Mikayılov, Millət vəkilləri Aydın Hüseynov və Səbinə Xasayeva, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev və rayon ictimaiyyəti iştirak edib.

Tədbiri giriş nitqi ilə açan Qaradağ Rayon İcra Hakimiyyəti başçısı Süleyman Mikayılov Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsiplərinin Heydər Əliyev tərəfindən yaradıldığını qeyd edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev özünün titanik fəaliyyəti və qətiyyətli qərarları ilə müstəqilliyimizin formalaşmasında, ölkədə sabitliyin əldə olunmasında, həmçinin, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəldilməsində müstəsna xidmətlər göstərib. Məhz buna görə də, xalqımız Ümummilli Lider Heydər Əliyevi müasir müstəqil Azərbaycan dövlətinin memarı, qurucusu adlandırıb. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq", "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" fikirlərini xatırladaraq Ulu Öndərin layiqli davamçısı Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sayəsində bunun artıq reallıq olduğunu vurğuladı. 2020-ci ildə ata vəsiyyətini həyata keçirən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun 44 gündə Qarabağı düşmən tapdağından azad etməsinin ulu öndərin təməlini qoyduğu strategiyanın təntənəsi adlandırıb.

Millət vəkili, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov çıxışında Ulu Öndərin dövlətçilik səriştəsi və bacarığı ilə qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxardığını, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırdığını vurğuladı və ölkəmizin əldə etdiyi nailiyyətləri diqqətə çatdırıb.

Millət vəkili Səbinə Xasayeva Ulu Öndərin göstərdiyi misilsiz xidmətlərindən söz açaraq, parlaq şəxsiyyətin fəaliyyətini araşdırdıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, xalqına son dərəcə böyük sevgi və hörmətlə yanaşmasını heyrətamiz hiss kimi səciyyələndirib. Bildirib ki, müasir Azərbaycanın mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik missiyasını öz üzərinə götürən Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirməklə, nəinki xalqımızın ən parlaq siması, eləcə də dünya siyasi elitasının görkəmli şəxsiyyətlərindən biri kimi tarixdə silinməz iz qoymuşdur.

YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev Heydər Əliyevin ən böyük xidmətlərindən birini YAP-ın yaradılması olduğunu da geniş şərh edib. Natiq sonra qeyd edib ki, bu gün ölkəmiz, Azərbaycan Prezidenti cənab İlham Əliyevin yorulmaz və qətiyyətli fəaliyyəti nəticəsində, dünyanın sayılan-seçilən ən güclü və qüdrətli dövlətlərindən birinə çevrilmişdir.

Daha sonra çıxış edən, Qaradağ Rayon İcra Hakimiyyətinin ictima-siyasi və humanitar məsələlər şöbəsinin müdürü Munis Bayramov Heydər Əliyevin keçdiyi böyük və şanlı tarixi yolundan ətraflı danışıb. Həm birinci hakimiyyəti dövründə, həm də ikinci dəfə hakimiyyətə gəldiyi vaxt Azərbaycan xalqına bəxş etdiyi zəngin zəhmətinin bəhrələrindən tədbir iştirakçılarına məlumat verib. O qeyd edib ki, məhz Heydər Əliyevin sayəsində sivilizasiyalı, demokratik və hüquqi cəmiyyət qurulmuş, yeni konstitusiya qəbul edilmiş, Azərbaycan Avropa şurasının üzvlüyünə daxil olmuşdur. Digər bütün nailiyyətlərə Heydər Əliyevin sayəsində nail olunduğunu qeyd etmişdir. Sonda rayon icra hakimiyyəti başçısı Süleyman Mikayılov qonaqlara və tədbir iştirakçılarına təşəkkürünü bildirərək, yığıncağı yekunlaşdırıb.

## Ağcabədidə "Arzuları həyata keçən Lider" mövzusunda konfrans keçirilib



**YAP** Ağcabədi rayon təşkilatında Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar "Arzuları həyata keçən Lider" mövzusunda videokonfrans keçirilib. Konfransda müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Rövşən Əhmədov açaraq, Azərbaycan xalqının Dahi oğlu, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı misilsiz xidmətləri barədə geniş məruzə ilə çıxış edib. R.Əhmədov bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan insan kimi qalmışdır: "Xalqımızın çoxəsrlik tarixində mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda Onun qədər misilsiz xidmətlər göstərmişdir. Bu mənada, Ulu Öndər xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan Liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa sandığımız ən böyük Azərbaycanlı idi. Ümummilli Lider Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına mayak kimi istiqamət verəcəkdir".

Konfransda ADPU-nun Ağcabədi filialının kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Tahir Kərimli, YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin sədri Ceyhun Məmmədov, şəhər 9 saylı məktəbin müəllimi Vüsalə Əliyeva, 2 saylı YAP ərazi ilk təşkilatının sədri Mehdi Məmmədov çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı təkrarolunmaz xidmətləri barədə danışmış, ölkəmizin hərtərəfli inkişafı, Qarabağın işğaldan azad olunması barədə ideyalarının onun siyasi varisi Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirildiyini, işğaldan azad edilən ərazilərdə böyük bərpa və quruculuq işlərinin başlanmasından qürurla söhbət açıblar.

***ZÜMRÜD BAYRAMOVA***

***Bu gün beynəlxalq aləmin üzləşdiyi problemlərdən biri də COVID-19 pandemiyasıdır. Dünya ölkələri ümumi səfərbərlik etsə də, hələ ki, pandemiyanın aradan qaldırılmasına nail ola bilmirlər. Bu da xalqlar və dövlətlər üçün yeni-yeni problemlər gətirməkdədir. Mübarizə isə davam etməkdədir. İnkişaf etmiş bir dünyada yaşamağımıza baxmayaraq, hələ də pandemiyanın qarşısının alınmasına nail olunmayıb. Bu gün pandemiyanın vurduğu zərbədən dünya əziyyət çəkir. Artıq iki ildən çoxdur ki, dünya ölkələrində bu xəstəlik baş qaldırıb və insanlar bunun qurbanına çevrilir. 2019-cu ilin sonunda baş qaldıran xəstəlik bu gün də davam edir.***



# Azərbaycan pandemiya ilə mübarizədə nümunəvi ölkəyə çevrilib








ŞƏRH

Xatırladaq ki, qısa bir zamanda dövlətlərarası sərhədlərin bağlanması ölkələrin iqtisadiyyatına təsirsiz ötüşmədi. Bu gün bütün dünya ölkələri ilə yanaşı, dövlətimiz də pandemiya ilə üz-üzə qalıb. Azərbaycan da iki ilə yaxındır ki, bu virusla mübarizəni davam etdirir.

İlk gündən başlayaraq, ölkəmizdə pandemiyaya qarşı təxirəsalınmaz tədbirlər həyata keçirilib. Ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı təsdiq edildi. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı. Fevralın 28-də ölkədə COVID-19-un ilk müsbət nəticəsi təsdiqləndi. COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq, bu sahədə görülən tədbirlərin səmərəliliyini artırmaq və tibbi profilaktikanı gücləndirmək məqsədi ilə 3-9 mart tarixləri arasında ölkənin bütün təhsil müəssisələrində tədris prosesləri və digər əlaqəli fəaliyyətlər dayandırıldı. Dezinfeksiya və digər profilaktik tədbirlər həyata keçirildi. Bir müddət sonra məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verildi.

Virusun geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik, təxirəsalınmaz və zəruri qabaqlayıcı tədbirlər Azərbaycan modelini nümunə olaraq bir daha ortaya qoymuş oldu. Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə koronavirusla mübarizə məqsədilə modul tipli xəstəxananların tikilməsi, "Yeni Klinika"nın açılması və s. əhalinin sağlamlığının qorunmasına yönəlmişdir. Beləliklə, Azərbaycan bu infeksiyanın yayılmaması və qarşısının alınması məqsədi ilə davamlı tədbirlər keçirdi. Davamlı olaraq reallaşan tədbirlər dünya ölkələri ilə müqayisədə öz müsbət nəticəsini vermiş oldu. Görülmüş bu və ya digər tədbirlər vəziyyətdən az itkilərlə çıxmaq məqsədi daşıyır. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırması da görülən işlərə verilən qiymət idi. COVID-19 ilə bağlı dünya statistikasına baxdıqda ölkəmizdəəldə edilmiş nəticələr doğrudan da çox təsirlidir. Məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatı qorunub. Vaxtında atılan addımlar, verilən müdrik qərarlar, həyata keçirilən layihələr bir daha sübut edir ki, möhtərəm Prezidentimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xalqının rifahı onun üçün hər şeydən üstündür. Ölkəmiz, koronavirus pandemiyasından daha çox zərər çəkən ölkələrə yardımlar göstərib. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi: "Bununla yanaşı, koronavirusa qarşı mübarizələrini dəstəkləmək üçün biz Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etmişdir". Hər bir vətəndaş məsuliyyətsizliyi, biganəlik, sanitar qaydalara əməl etməmək yoluxma sayının yenidən artmasına səbəb olur. Operativ Qərargah tərəfindən karantin qaydalarında yumşalmalar vətəndaşlarımızı arxayınlaşdırmamalı, xüsusi karantin rejiminin qaydalarına ciddi əməl edilməlidir.Bu gün dövlətimiz milli səviyyədə, COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə öz töhfəsini verir. Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmə vacibdir. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer", "Sinovac" kimi peyvəndləri istifadə edilir. Statistika göstərir ki, COVID-19 testi pozitiv olanların 90 faizindən çoxu peyvənd olunmamış şəxslərdir. Bu gün ölkəmizdə əhaliyə vurulan vaksinlərin ümumi sayı 10 milyonu ötüb. Bu, ölkəmizdə vaksinasiyanın uğurla reallaşdığının göstəricisidir.Təbii ki, bu gün yoluxma sayının dörd rəqəmli olması artıq həyəcan təbili çalır. Hər bir vətəndaş məsuliyyətsizliyi, biganəlik, sanitar qaydalara əməl etməmə yoluxma sayının yenidən artmasına səbəb olur. Operativ Qərargah tərəfindən karantin qaydalarında yumşalmalar vətəndaşlarımızı arxayınlaşdırmamalı, xüsusi karantin rejiminin qaydalarına ciddi əməl edilməlidir.

***Zümrüd Bayramova***

# Emerging Europe Ermənistanın çıxılmaz vəziyyətndən yazdı




ANALİTİK

**"Paşinyan özünün qərbyönümlü baxışları ilə tanınır və dəfələrlə Rusiyaya tərəf reveranslar edib"**

İyun ayında Ermənistanda keçirilmiş növbədənkənar parlament seçkiləri Qarabağ müharibəsindən sonra ağır vəziyyətə düşmüş ölkəni siyasi böhrandan xilas edə bilmədi. Rusiyanın iştirakı ilə atəşkəsin əldə edilməsi nəinki Ermənistanın məğlubiyyətini sübut etdi, həm də güclü böhranın yaranmasına səbəb oldu, hakimiyyəti destabilliyə gətirdi, siyasi fikir ayrılıqlarını gücləndirdi və daha çox ölkədəki siyasi qütbləşməni gücləndirdi.

**Bu, o demək deyil ki, ictimaiyyət Paşinyana etimad edir**

SİA xəbər verir ki, mövzu ilə bağlı Emerging Europe nüfuzlu xəbər nəşri "Ermənistan: qeyri-sabitlik və qeyri-müəyyənlik" başlıqlı məqaləsində yazır.

Qeyd olunur ki, mövcud administrasiyaya qarşı iki siyasi partiya çıxır və onlar atəşkəsin əldə olunmasına etiraz edirlər. Onlara görə müharibənin dayandırılması baş nazir Nikol Paşinyanın mövqeyini şübhə altında qoyub. Bu partiyaların təmsilçiləri Paşinyanı xəyanətdə, ölkəni satmaqda ittiham edərək nümayişlər vaxtı onun istefasını tələb ediblər. Lakin Ermənistanın hərbi məğlubiyyətə rəğmən, Paşinyan parlamentə keçirilən iyun seçkilərində qalib olur. Lakin bu o demək deyil ki, ictimaiyyət Paşinyana etimad edir, onlar daha çox Robert Koçaryanla Serj Sarqsyanın idarəçilikləri vaxtı düşdükləri vəziyyətlərini xatırlayırlar.

SİTAT: "Koçaryanın "Ermənistan" blokunun rəhbəri olaraq parlament seçkilərində ikinci yeri tutması ölkə daxilindəki siyasi hadisələri növbəti qütbləşməyə doğru gətirib-çıxardı. Bu xaosdan çıxmaq üçün yolların axtarılması yerinə həm hakim "Vətəndaş sazişi" partiyası, həm də "Ermənistan" bloku bir-birlərini ittiham etməyə başladılar. Belə ki, Paşinyanın tərəfdarları bütün günahları keçmiş prezident Koçaryanın üzərinə atırlarsa və Ermənistanın mövcud vəziyyətə gəlib-çıxmasında, Azərbaycanla müharibədə uduzmasına səbəb olmasında ittiham edirlərsə, Koçaryanın tərəfdarları məğlubiyyəti Paşinyanı düşüncəsizliyi ilə əlaqələndirirlər. Başqa sözlə, Paşinyan və Koçaryan bir-birlərini real və potensial çatışmazlıqlarda, hərəkətlərdə ittiham etmələri ilə ölkəni xaoslu vəziyyətə doğru gətirib-çıxmasında əsas səbəbkar kimi görürlər".



EMERGING EUROPE

OPINION

**Post-war Armenia: Amid instability and uncertainty**

December 8, 2021 | 7 Min Read | Aram Terzyan

**Armenia remains divided, its economy is in trouble, and its leaders increasingly view Russia as a saviour.**

**İqtisadi geriləmə əhalisinin dəhşətli yoxsulluq həddinə düşməsinə səbəb olub**

Emerging Europe yazır ki, müharibədən sonra Ermənistan koronavirus pandemiyası və iqtisadi tənəzzül daxil olmaqla həll olunmamış problemlərdən əziyyət çəkməkdə davam edir. Qeyd olunur ki, Ermənistandakı daxili siyasəti "sıfır həcmli oyun" prinsipi ilə şərh etmək olar. Belə ki, hətta təhlükəsizliyə yaranmış təhlükələrin mövcud olduğu bir zamanda siyasi oyunçular arasındakı didişmələr səngimir. Nəşr həmçinin qeyd edir ki, pandemiya və böyük iqtiadi geriləmə effektsizlik şəraitini ölkədəki siyasi qeyri-sabitliyi daha da genişlənir. SİTAT: "Dünya bankının məlumatına görə koronavirus pandemiyası və Qarabağ müharibəsi Ermənistanın iqtisadi artımını dayandırıb və bu da iqtisadiyyatın 7,4% düşməsinə gətirib-çıxarıb. Bu, eyni zamanda və xüsusilə şəhər əhalisinin dəhşətli yoxsulluq həddinə düşməsinə səbəb olub".

"İctimai narazılıqları dərk edən Ermənistan hökuməti kütləvi informasiya vasitələrini və həssas siyasi məsələlərlə bağlı ictimai diskursu nəzarətə götürməyə cəhd edir. Ermənistanın konstitusiya məhkəməsi oktyabrın 9-da bu il qəbul edilmiş "ictimai xadimi təhqir etməyə görə" müəyyən edilən cərimə cəzası miqdarının artırılması təklifini dəstəkləyib. Qanun faktiki olaraq antihökumət və fərqli fikir səsləndirənlərə qarşı basqını artıran, qeyri-demokratik hökumətlərin qəbul etdiyi qərarları qəbul edir. Hansı ki, 2018-ci ilin "məxməri inqilabı" zamanı erməni xalqı demokratik ölkədə yaşayacaqlarını xəyal edirdilər", deyə adıçəkilən Avropa nəşri yazır.

Məqalədə o da xatırladılır ki, Paşinyan özünün qərbyönümlü baxışları ilə tanınır və dəfələrlə Rusiyaya tərəf reveranslar edib. Lakin atəşkəsin əldə olunması ilə bağlı Bəyanatın imzalanması Rusiyanı Ermənistanın "xilaskarı" kimi təqdim edir. SİTAT: "Yüz il əvvəl Ermənistanda sovet hakimiyyəti qurulduğu ərəfələrdə ermənilərin ilk baş naziri olmuş daşnak Ovanes Kacaznuni deyirdi: "Dövlətçiliyimizin ilk günlərindən biz yaxşı bilirdik ki, balaca, yoxsul, qeyri-müəyyən və təcrid edilmiş Ermənistan kimi ölkə həqiqi olaraq müstəqil və muxtar ola bilməz... Biz bolşeviklərə minnətdar olmalıyıq. Onlar bizi devirməklə bizi xilas etdilər, bizi ümidverici yola çıxardılar...". Yüz il keçdikdən sonra erməni siyasi düşüncəsi əhəmiyyətli dərəcədə "köməksiz ölkə" kimi görünür. Müasir siyasi xadimlər Rusiyanı müttəfiq olaraq görürlər. Ən yeganə istisna "Milli-demokratik qütb" oldu (bu adla hazırda "Sasna srer" millətçi qruplaşması çıxış edir) ki, Ermənistanı dağılmaq vəziyyətinə gətirməsinə görə Rusiyanı ittiham etdi. İyunda keçirilmiş növbədənkənar seçkilərin nəticələrinə görə bu partiya 2% səs topladı", Emerging Europe nəşri məqaləsini yekunlaşdırıb.

***Rövşən RƏSULOV***

# Dmitri Zavorotnı:
# "Fars körfəzi-Qara dəniz marşrutu Yeni İpək Yolu üçün rəqib ola bilər"

***Rusiya Federasiyası İqtisadi Strategiyalar Mərkəzinin rəhbəri Dmitri Zavorotnı "Caliber" analitik mərkəzinə müsahibəsində Avrasiya nəqliyyat dəhlizləri məsələsi ilə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Bu yaxınlarda Azərbaycan, İran və Gürcüstan Fars körfəzini Qara dənizlə birləşdirən tranzit marşrutunun təşkili ilə bağlı razılığa gəliblər. Bu layihənin perspektivlərini necə qiymətləndirirsiniz?***

- Əgər biz məsələyə iqtisadiyyat nöqteyi-nəzərindən yanaşsaq, o zaman istənilən nəqliyyat dəhlizinin perspektivi layihəyə neçə ölkə və iqtisadiyyatın cəlb oluna biləcəyindən, eləcə də belə bir marşruta üçüncü ölkələrin əmtəə axınının hansı həcmdə bağlana biləcəyindən asılıdır. Əsas odur ki, alternativ yolların bolluğunu nəzərə alsaq, rəqabətə tab gətirə bilərmi?

***- Sizcə, bu marşrut Ermənistandan niyə yan keçib?***

- Burada yəqin ki, sualtı geosiyasi daşları axtarmaq lazımdır, amma mən belə təklif edə bilərəm ki, səbəblərdən biri hələ də tikintisi başa çatmamış, Ermənistan ərazisindən keçən və İranı Gürcüstan limanları ilə birləşdirməli olan magistraldır. Tikinti davam etdiyi müddətdə bu istiqamətdə hər hansı nəqliyyat dəhlizinin həyata keçirilməsi problemli olacaq.



***- Qara dənizdə bir çox ölkələrin maraqları toqquşur. Yeni tranzit marşrutu Ankara, Moskva və Tehran arasında qarşıdurma meydanına çevrilməyəcəkmi?***

- Mən deyərdim ki, Qara dəniz üç imperiyanın- Rusiya, Osmanlı, İran, indi isə onların varisləri olan dövlətlərin qarşıdurma meydanı olmaqdan heç vaxt çıxmayıb. Və bura regionda öz oyunlarını oynayan ABŞ və Çini də əlavə etmək olar. Təəssüf ki, bura, planetin "düyün nöqtələrindən" biridir və gələcəkdə burada güman ki, heç nə dəyişməyəcək.

***- Fars körfəzi-Qara dəniz marşrutu Şimal-Cənub marşrutuna rəqib ola bilərmi?***

- Hər şey mürəkkəbdir. Hindistan Şimal-Cənub dəhlizinin əsas benefisiarıdır, Fars körfəzi-Qara dəniz dəhlizi isə Şimal-Cənub layihəsinin də iştirakçısı olan, lakin Avropa istiqamətində logistikanı diversifikasiya etməyə çalışan Tehranın təşəbbüsüdür. Lakin ola bilsin ki, Hindistan da sonda Fars körfəzi-Qara dəniz dəhlizinə qoşulsun. Ya da öz layihəsini müdafiə etmək qərarına gəlsin. Öz növbəsində, bu dəhlizlərin hər ikisi öz iştirakçılarını öz orbitinə cəlb etməyə çalışacaq Bu dəhlizlər Çinin Yeni İpək Yolu üçün rəqib ola bilər. Burada geosiyasət bir neçə dəfə öz düzəlişlərini edəcək.

***Tərcümə - Elçin Bayramlı***

***Azərbaycanın Vətən müharibəsindəki qələbəsini həzm edə bilməyən, uğurlarını gözü götürməyən, tam müstəqil siyasət aparmasını qəbul edə bilməyən əleyhdarlarımızın buyruq quluna çevrilən "sapı özümüzdən olan baltalar"ın ən fəal nümayəndələrindən olan və ABŞ-da yaşayan Sevinc Osmanqızının son günlər sosial şəbəkələrdə xüsusi fəallıq nümayiş etdirməsi heç də təsadüfi deyil.***

# Sevinc Osmanqızının N.Paşinyan sevgisi kəllə-çarxa qalxıb



Erməni lobbisinin qrant layihələri ilə bəslənən bu xanım jurnalist dekabrın 9-10 da keçiriləcək Baydensayağı "demokratiya sammiti", eləcə də dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə görüşü çərçivəsində Azərbaycan və Ermənistan rəhbərlərinin nəzərdə tutulan görüşü ərəfəsində ölkəmizin əleyhinə apardığı qara piar kampaniyasının rəngini bir az da tündləşdirib. Bir neçə gün bundan əvvəl bu simasız "jurnalist" "Osmanqızı TV"- də "Kaş ki, Paşinyan bizim prezidentimiz olaydı" fikirlərini səsləndirməklə isə ekskrement qoxuyan anti-Azərbaycan mövqeyini tam çılpaqlığı ilə bir daha ortaya qoydu.

Əslində burada təəccüblü bir şey yoxdur. Belə ki, 2020- ci il iyulun 12-dən 15-dək Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətindəki təxribat xarakterli hücumunun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındığı günlərdə ermənilərin dünyanın bir sıra ölkələrində həmvətənlərimizə qarşı hücumlar təşkil etdiyi bir vaxtda, hətta məşhur erməni terror təşkilatı olan "ASALA" emblemli köynəklər geyinən erməni şovinistləri Los-Anceles şəhərində, Avropada, Rusiyada səfirliklərimizə və azərbaycanlılara qarşı qanlı savaş və təxribatlar başlatdıqları zaman Sevinc Osmanqızı düşməni müdafiə edən fikirlər səsləndirmişdi. Həmin vaxt özünü azərbaycanlı adlandıran S.Osmanqızı iddia edirdi ki, guya "sivil" qarşıdurmanı pozan Azərbaycan tərəfidir. "Bu qarşıdurmanı təşkil edən Azərbaycan tərəfidir"- deyən S.Osmanqızı bu hərəkətləri ilə açıq-aşkar erməniləri müdafiə etməklə əslində düşmən dəyirmanına su tökürdü. "Onlar (xaricdə yaşayan azərbaycanlılar) nəyə görə səfirliyin müdafiəsinə qalxmalıdırlar?"- deyən bu xanım jurnalist üzərində ASALA terror təşkilatının adı olan paltarlar geyinən ermənilərin Azərbaycanın xaricdəki diplomatik konsulluqlarının binalarına təşkil etdiyi hücumları, onların soydaşlarımıza xəsarət yetirdiklərini, necə deyrələr, görməzlikdən gəlirdi. "Mən yenə də davanı kimin başlatması məsələsinə girməyəcəm. Bunu ayırd etmək çətin məsələdir və əhəmiyyətli məsələ də deyil", - deyən Osmanqızı daha sonra əlavə edir ki, "Bu, Azərbaycanın milli maraqlarının müdafiəsi deyil".

Təbii ki, bütün bunlar S.Osmanqızının ermənipərəst dairələrlə birbaşa əlaqəsinin olduğunu, onlardan çirkli qrantlar müqabilində ölkəmizin əleyhinə qara piar kampaniyası aparmaq tapşırığını almasını bir daha sübut edir. Onun ABŞ-dakı lüks həyat tərzi dediklərimizə şübhə yeri qoymur. Necə olur ki, təxminən 2012-ci ildə ABŞ-a köçən xanım jurnalist qısa müddətdə burada bahalı mənzil alır, ən prestijli mağazalardan alış-veriş edir və sairə? 261 min ABŞ dollarına alınan həmin mənzil Florida ştatının varlılar məkanı kimi tanınan Mayami şəhərinin prestijli məhəlləsində - Biscayne küçəsində yerləşir. Bəli, çörəyi ilə böyüdüyü Azərbaycanın mənafelərini xarici ölkədə bahalı mənzilə, maşına, lüks həyat tərzinə satan xəyanətkar, satqın, mənəvi-psixoloji sarsıntılar içində olan S.Osmanqızının əsl sifəti budur. Yəqin ki, indi çoxları üçün antimilli ünsürlərin mətbuat xidməti rolunu oyanayan bu xanım jurnalistin qəlbində Azərbaycan xalqına qarşı bu qədər kin-küdürətin haradan qaynaqlandığı bəlli olur. Ancaq S. Osmanqızı kimilər bilməlidirlər ki, çirkli qrantlar, bahalı mənzillər hesabına ermənipərəst qüvvələrin və anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirən satqın, xəyanətkar antimilli ünsürlərin ölkəmizə, xalqımıza, dövlətimizə və dövlətçiliyimizə, milli birliyimizə, milli-mənəvi dəyərlərimizə qarşı apardıqları qara piar kampaniyası gec-tez fiaskoya uğrayacaqdır. Çünki S.Osmanqızı, eləcə də "qrant müxalifət"i olan AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, bu qurumun koordinasiya şurasının üzvləri, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu kimilərin əsl simasını xalqımız yaxşı tanıyır. Özlərini cəmiyyətdən təcrid edərək marginallaşmış, Vətəninə xəyanət edən belə antimilli ünsürlər gec-tez öz layiqli cəzalarını alacaqlar. Heç kimin buna şübhəsi olmasın...

***Zahid Rza***

# "Demokratiya pərdəsi altında oyun qurulub"



***"Dünyanı "avtoritarizmə yuvarlanmaqdan xilas etmək" devizi altında ABŞ-ın təşəbbüsü və rəhbərliyi altında "demokratiya" sammiti keçirilir. Dırnaqarası "demokratiya" sammitinə dəvət alan və dəvət olunmayan ölkələrin siyahısına baxanda elə bəlli olur ki, bu sammitin arxasında demokratiya yox, geosiyasi maraqlar dayanır." Bu sözləri SİA-ya verdiyi açıqlamasında "Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi" İctimai Birliyinin sədri Mehriban Abdullayeva deyib.***

İctimai Birliyin sədri vurğulayıb ki, başda Ermənistan, Gürcüstan, Nigeriya və başqa avtoritarizmin hökm sürdüyü dövlətlərin dəvət aldığı sammitə Azərbaycanın, Türkiyənin timsalında demokratik dəyərlərə yüksək qiymət verən ölkələrin dəvət almaması onu göstərir ki, bu sammit demokratiya pərdəsi altında keçirilir və burada demokratiyadan söhbət belə gedə bilməz, yalnız oyun qurulub.



"ABŞ bütün dünyaya demokratiya barədə car çəkməsinə baxmayaraq bu ölkənin özündə hələ klassik demokratiya yoxdur və əgər bu ölkənin prezidentini vətəndaşlar seçmirlərsə, hansı demokratiyadan dəm vurduqları bəlli olur. Son prezident seçkilərindən sonra Donald Trampın televiziyaya, mediaya çıxışı məhdudlaşdırılırdısa, ümumiyyətlə bağlanırdısa, deməli bu ölkədə demokratiya deyilən ali dəyərdən əsər-əlamət ola bilməz. Üstəlik bu ölkə sammitə öz maraqları kontekstində istədiyi dövlətləri dəvət edir, istədiyini dəvət etmirsə, bu o deməkdir ki, ABŞ özü bilərəkdən dövlətləri, maraqlarına xidmət edən və etməyən olmaqla iki cəbhəyə ayırmağa çalışır. Onlar üçün demokratiya tamamilə sonuncu dərəcəli məsələdir, əks halda Azərbaycanı və Türkiyəni də dəvət edərdilər, çünki demokratiya Ermənistanda, Gürcüstanda, Nigeriyada deyil, məhz bizim ölkəmizdə və qardaş Türkiyədə hökm sürür.

Sözügedən sammitə Azərbaycanın dəvət olunmaması qərəzli mövqeyin nümayişidir. Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayan, multikulturalizmi dövlət siyasəti olaraq qəbul edən Azərbaycanın bu sammitə dəvət almaması məhz qərəzli yanaşmanın təsdiqidir. Ermənistan kimi monoetnik, terrorçu, işğalçı ölkənin ABŞ tərəfindən sammitə dəvət edilməsi burada demokratiyanın müzakirə mövzusu olmaması analmına gəlir. Dırnaqarası "demokratiya" sammitinə Mərkəzi Asiya ölkələri də daxil olmaqla heç bir türkdilli dövlət və islam dünyası ölkələrinin əksəriyyətinin dəvət almaması da onu göstərir ki, demokratik dəyərləri ABŞ elə özü pozur", deyə Mehriban Abdullayeva bildirib.

***İnam Hacıyev***

SON SƏHİFƏ
SƏS
11 dekabr
2021-ci il

## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN



## “Qalatasaray” 1/8 finalda!

***Futbol üzrə UEFA Avropa Liqasında qrup mərhələsinə yekun vurulub. Bununla da 1/8 final və pley-off mərhələsinin bütün iştirakçıları müəyyənləşib.***

Oyunların nəticələrinə əsasən, A qrupunda ”Lion” və ”Reyncers”, B qrupunda ”Monako” və ”Real Sosyedad”, C qrupunda ”Spartak Moskva” və ”Napoli”, D qrupunda ”Ayntraxt” və ”Olimpiakos”, E qrupunda ”Qalatasaray” və ”Latsio”, F qrupunda ”Srvena Zvezda” və ”Braqa”, G qrupunda ”Bayer” və ”Betis”, H qrupunda isə ”Vest Hem” və ”Dinamo Zaqreb” 1/8 finala yüksəliblər.

”Seltik” (Şotlandiya), ”Fənərbaxça”, (Türkiyə), ”Lester” (İngiltərə), ”Sparta” (Çexiya), PSV (Niderland), ”Marsel” (Fransa), ”Midtülland” (Danimarka) və ”Rapid” (Avstriya) qrup 3-cüsü mübarizəni Konfrans Liqasının pley-off mərhələsində davam etdirəcəklər.

## “Mahir komandanın göstərdiyi oyunun qurbanıdır”



“Mənə elə gəlir ki, Mahir ”Legiya”nın bu mövsüm göstərdiyi oyunun qurbanıdır. Mixneviçin istefaya göndərilməsindən sonra klubdakı alkoqol qalmaqalı Emreliyə böyük təsir edib”. Qol.az xəbər verir ki, bu fikirləri ”Qarabağ”ın sabiq futbolçusu Yakub Jezniçak ”Weszlo” nəşrinə açıqlamasında deyib. Hazırda Polşanın ”Visla” klubunda çıxış edən müdafiəçi millimizin hücumçusu Mahir Emrelinin ”Legiya”dakı durumundan danışıb. O, keçmiş komanda yoldaşı haqda yayılan spirtli içki qalmaqalı haqda da fikirlərini bildirib və Mahirin belə bir insan olmadığını qeyd edib:

”Onunla bu barədə danışdım. Həmin hadisədən çox təsirləndi. Xəbəri eşidən kimi əmin oldum ki, Mahir həmin qrupda olmayıb. Azərbaycanda mədəniyyətin necə olduğunu bilirəm. Futbolçular tez-tez əyləncə məkanlarını gəzirlər. Amma bu o demək deyil ki, içki içirlər”.

Jezniçak vaxtilə özü haqda da oxşar söz-söhbətlərin yayıldığını xatırladıb: ”O vaxtlar bu məsələləri çox qabartmırdılar. Çünki nəticələr yaxşı idi. Oxşar təcrübələrim olub. Bu üzdən də Emreliyə məsləhət verməyə, onu ruhlandırmağa çalışıram ki, tənqidlər oyununa əks olunmasın. Ən çətin anlarda belə, performansımı təhlil edirdim. Əksər matçları yaxşı keçirirdim. Amma qol buraxmağımızla nəticələnən bir səhv etdim. Bu vəziyyət hücumçunun qol vura bilməməsi ilə bənzərdir. Dərhal qiymətləndirmə kəskin sərtləşir”.

Qeyd edək ki, Yakub Jezniçak 2004-2017-ci ildə ”Legiya”da, 2017-2019-cu illərdə isə ”Qarabağ”da çıxış edib.

## Keçmiş arvadını və qayınatasını öldürməyə cəhd edən şəxs tutuldu

***Ağcabədi rayonunun Ağabəyli kəndində yaşayan 1984-cü il təvəllüdlü Aynurə Cəfərovaya və atası 1958-ci il təvəllüdlü Azim Hüsiyevə dekabrın 9-u saat 14 radələrində bıçaqla xəsarətlər yetirilməsi barədə rayon prokurorluğuna məlumat verilib.***



Rayon prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, aparılmış araşdırmalarla 1982-ci il təvəllüdlü İlhamiz Cəfərovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı keçmiş arvadı Aynurə Cəfərovaya və onun atası Azim Hüsiyevə bıçaqla xəsarətlər yetirərək onları qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən olunub.

Faktla bağlı Ağcabədi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.7- c i (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb. İlhamiz Cəfərov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Revmatizm xəstəliyi barədə bilmədiyiniz vacib faktlar...

***Havalar soyuyan kimi oynaq, sümük, bel və kürək ağrıları artır. Həmin ağrıların yaranmasının müxtəlif səbəbləri var. Onlardan ən geniş yayılanı revmatizmdir. Revmatizm hər yaş qrupunda, o cümlədən uşaqlarda əzələ, skelet və bağlarda müşayiət olunan xroniki haldır.***



AZƏRTAC xəbər verir ki, bunu həkim-revmatoloq İlqar Məmmədov deyib. Həkim bildirir ki, revmatizm xəstəliyi əsasən genetik faktorlarla bağlıdır: ”Kəskin soyuq hava şəraitində hava təzyiqinin aşağı düşməsi ilə əlaqədar olaraq sinir sisteminin ağrıya həssaslığı artır. Xəstənin hansısa oynaq və əzələsində iltihab varsa, həmin sinirin həssaslığı daha da artmış olur. Xüsusilə periferik oynaqlarda, əl və ayaq barmaqlarında kəskin ağrılar, oynaqlarda şişkinlik olarsa və həmin ağrılar səhər yuxudan oyananda sərtliklə müşahidə olunarsa, ürəyin struktur elementində dəyişiklik və zədələnmə olub-olmadığını izləmək üçün exokardioqram aparılmalıdır”.

Revmatizm ürəyə, qalxanabənzər vəzinə, gözə, dəriyə, hətta daxili orqanlara təsir edir: ”Ümumilikdə revmatoloji xəstəliyi birdəfəlik aradan qaldırmaq mümkün deyil. Xəstəlik sakitlik mərhələsinə gətirilərək həyat davam edir. Həmin etiologiyanı tərpədən faktorlar var. İlk növbədə, hava şəraitinin dəyişməsi, bundan başqa stres faktorunun, həmçinin fiziki və zehni gərginlik zamanı, eləcə də COVID-19 xəstəliyindən sonra xəstəliyin fəallaşması mümkündür”.

Revmatik xəstələrdə ilk olaraq əzələ, bel, oynaq ağrıları və şişkinlik, ürək-damar, həzm sistemində problemlər nəzərə çarpır. Xəstəliyin müalicəsi uzunmüddətli də ola bilər. Müalicə bitəndən sonra xəstə pəhriz saxlamalı, orqanizmin gücləndirilməsi daim diqqət mərkəzində olmalıdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**